# Azərbaycan Respublikası
# Təhsil Nazirliyi

## Azərbaycan Respublikasında turizmin təşkilinin, inkişafının və idarə olunmasının əsas problemləri

Kamil Quluzadə

UNEC SABAH

Azərbaycan Dövlət iqtisad Universiteti

May 2018

MÜNDƏRİCAT


Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .. 2

Fəsil I Azəzbaycan Respublikasında turizmin təşkilinin, idarə olunmasının və inkişafının regional və nəzəri aspektləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6

1. 1Azərbaycanda və onun kurorturizm regionlarında turizm işinin formalaşmasının təbii amilləri. ......................................................................6

1. 2Turizmin müxtəlif formalarının (ekoloji, tarixi, kənd yaşıl turizm, ekstremal və s. ) inkişafının müasir vəviyyəti və perspektivləri. ..................11

Fəsil II. Azərbaycan turizminin mövcud vəziyyəti və inkişaf perspektivləri …19

2. 1. Azərbaycan Respublikasında turizmin inkişaf dinamikası …………… . 19

2. 2. Turizmin regionların inkişafında və əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasında rolu. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25

Fəsil III. Azərbaycan Respublikasında turizm fəaliyyətinin idarə olunmasının və tənzimənməsinin başlıca xüsusiyyətləri və çətinlikləri. . . . . . . . 29

3. 1. Turizmin inkişafının dövlət tənzimlənməsinin xüsusiyyətləri. . . . . . . . . . . . 29

3. 2. Turizmin inkişafına əngəl olan amillər. . . . . . . . . . . . . . . . . . . . . . . . . .. . 33

Nəticə və təkliflər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 43

İstifadə edilmiş ədəbiyyat siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46

## Giriş

**Mövzunun aktuallığı.** Turizm gəzintinin iqtisadi siyasi və mədəni çalarlarını özündə əks etdirən forması olmaqla son illər öz aktuallığını gücləndirməkdədir. Mahiyyət etibarı ilə 19-cu əsrin əvvəllərindən qlobal çərçivədə inkişafa başlayan turizm sahəsi getdikcə siyasi və iqtisadi əlaqələrin güclənməsində öz rolunu sübut etmiş və bununla turizmə olan dövlət qayğısı bütün dünyada artmışdır. İqtisadiyyatla maraqlanan hər kəsə məlumdur ki, turizm dövlət büdcəsinin formalaşmasında yüksək paya malikdir və qloballaşma, dövlətlər arası əlaqələr gücləndikcə bu pay artmaqda davam edir. Lakin, turizmin iqtisadiyyat üzərindəki əsas təsirini görmək üçün kənardan baxmaq kifayət etmir. Belə ki, turizmin iqtisadiyyatda və dövlətlər arası əlaqələrin formalaşmasında rolu daha budaqlı və məna etibarı ilə daha çalarlıdır.

Qeyd etmədən keçə bilməyəcəyimiz əsas ünsürlərdən başlıcası işsizlikdir ki, turizmin inkişafı bu problemin öhdəsindən gəlməkdə etibarlı həll variantıdır. Səbəbi isə açıqdır ki, hər hansısa bir sahənin inkişafı həmin sahə üzrə yeni sektorların və hər bir sektora uyğun fərqli müəssisə və iş yerlərinin açılmasını zəruri edir. Açılmış yeni iş yerlərində fəaliyyətinə uyğun olaraq yeni əmək qabiliyyətli kadrlara ehtiyac duyulur. Bu isə öz növbəsində işsizlik probleminin ilkin həllidir. Burada qeyd etməli olduğumuz daha dərin bir problem var ki, əslində düzgün araştırma bizə bu problemin də mənbəyinin işsizlik problemi ilə eyni olduğunu göstərəcəkdir. Vurğulamağa çalışdığım problem urbanizasiyanın kəskin artması nəticəsində son illərdə paytaxtımızın çiyinlərinə götürə biləcəyindən artıq yükün yüklənməsidir. Belə ki, bölgələrdə mövcud olan işsizlik problemi bölgə əhalisinin paytaxta sığınması ilə nəticələnir ki, bu da öz növbəsində tıxac, evsizlik, hədsiz səs küy kimi bir çox əlavə problemlərin ortaya çıxması ilə nəticələnir. Nəticə etibarı ilə bütün sadaladığımız və sadalaya bilmədiyimiz bir çox problemin kökündə bölgələrin inkişafdan qalması durur ki, mövcud bazar iqtisadiyyatı şəraitində bölgələrin inkişafına əsas təsir edə biləcək sektor turizmdir. Bir başqa pəncərədən mövzuya yanaşsaq bölgələrdə turizmin inkişafı infrastruktruların yenilənməsi, paytaxtdan bölgələrə yeni yolların çəkilməsi, hətta turistlər tərəfindən bölgələrə kəskin tələb yaranarsa hava limanı,

dəmiryolu kimi böyük planlı infrastruktur layihələrinin də həyata keçirilməsinə səbəb olacaqdır. Turizm inkişafın elə bir modelidir ki, həyata keçirilməsi üçün görülən tədbirlər gələn turistlərlə yanaşı yerli əhalinin də həyat şəraitini yaxşılaşdırır. Başqa bir çox kommersiya yollarından fərqli olaraq bu zaman ətraf mühitə heç bir formada zərər vurulmur tam əksinə mühit qorunur yeni meşə zolaqları salınır tarixi abidələr bərpa olunur.

Turizm fəaliyyəti çox yüksək kapital qoyuluşu tələb etməməsi ilə yanaşı başqa bizneslərdən fərqli olaraq qoyulan kapitalı çox qısa müddət ərzində sabit gəlirə çevirə bilir. Bu kapital elə bir kapitaldır ki, kommersiya məqsədi ilə qoyulduqda eyni anda həm də sosial sahələrə də qoyulmuş olur. Dünya Turizm Təşkilatının hesabatlarına görə təkcə Amerika Birləşmiş Ştatlarının dövlət büdcəsinə turizm sektorundan hər il 220. 1 milyard dollar vəsait gəlir. Turizm məhsulunun istehsalının bir başqa üstünlüyü isə əlavə xərclərə ehtiyac duymamasındadır. XX əsrin sonlarından başlayaraq dünya iqtisadiyyatında beynəlxalq turizmin rolu kəskin şəkildə artmıştır. Hər keçən il səyahətlərin sayında 4-5% artım müşahidə olunur.

Ölkəmizin təbii mühiti turizmin fərqli sahələrinin inkişafı üçün tam uyğundur. Son illərin iqtisadiyyat təcrübəsi ölkəmizə qeyri-neft sektorunun önəmini bir daha göstərdi. Bunun nəticəsi olaraq ölkəmizdə qeyri neft sektorunun inkişafı üçün əsaslı tədbirlər planı hazırlanıb fəaliyyətə keçildi. Bu tədbirlər planında ilk yerdə kənd təsərrüfatı və turizm sektoru durur.

Bu planların nəticəsi kimi sözügedən dövrdə ölkəmizdə turizm sektorunun inkişafı üçün əsaslı addımlar atılıb. Yeni otellərin, istirahət mərkəzlərinin tikilişi, viza rejiminin sadələşdirilməsi kimi tədbirlər bunun göstərgəsidir. Əsrarəngiz təbiət, müalicəvi əhəmiyyətli sular, tarixi memarlıq abidələri, Qafqaz nemətləri və bir çox başqa ünsürlər ölkəmizdə turizmin fərqli formalarının inkişafı üçün əhəmiyyət daşıyır.

Son olaraq qeyd etməliyik ki, turizmin ölkə iqtisadiyyatında dayanıqlı və rəqabətə davamlı sahəsi kimi öz yerini tutması qısa zamanda baş verəcəkdir. Bunu son illər ərzində artan inkişaf dinamikası ilə başa düşmək olar. Hər ötən il ölkəmizdə 20-

45 mehmanxana, motel və başqa turizm infrastrukturları tikilmiş və bir o qədərinində tikilməsi nəzərdə tutulmuşdur. Turizm sahəsinə qoyulan investisyalarında sayı nəzərə çarpacaq qədər artmışdır. Son 10 ildə ölkə ərazisindəki turizm şirkətlərinin sayı 4 dəfə artmışdır. Bunun nəticəsi olaraq 2016-2017-ci illərdə Azərbaycana gələn turistlərin sayında 52 faiz artım müşahidə olunmuşdur.

Ölkəmizə dünyanın bütün yerlərindən gələnn turistlər maraq göstərir. Lakin mövcud turizm sektorunun əsas müştəriləri əsasən beş mənbədə formalaşır.

- Yerli turistlər
- Ermənistan xaricində bütün qonşu dövlətlər;
- Körfəz dövlətləri (son beş ildə ən çox turist axını)
- MDB ölkələri-xüsusən Qazaxıstan və Özbəkistan
- Kanada Yaponiya və ABŞ kimi kütləvi turizm ölkələri

**Tədqiqatın obyekti** – Azərbaycan Respublikasında turizmin təşkilinin, inkişafının və idarə olunmasının əsas problemləri.

**Tədqiqatın predmeti** – Azərbaycan Respublikasında turizmin inkişaf tendensiyaları və turizm təsərrüfatının əhəmiyyətli istiqamətlərinin öyrənilməsi.

**Tədqiqatın məqsədi** – Turizmin inkişafında həyata keçirilən siyasətin əsas göstəricilərinin təhlili və turizm sahələrinin idarə olunmasında problemlərin araşdırılması.

**Tədqiqatın vəzifələri** – qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

1. Turizmin müxtəlif formalarının (ekoloji, tarixi, kənd yaşıl turizm, məcarə, ekstremal və s. ) inkişafının müasir vəziyyəti və perspektivləri.
2. Azərbaycan Respublikasında turizmin inkişaf dinamikası.
3. Turizmin inkişafının dövlət tənzimlənməsinin xüsusiyyətləri.

**Nəzəri və təcrübi əhəmiyyəti** – aparılan tədqiqatın əhəmiyyəti Azərbaycan Respublikasında turizmin bir sıra problemlərinin tədqiqi və onların daha persektivli sahələrinin öyrənilməsidir.

**İnformasiya mənbəyi -** yerli və xarici alimlərin mövzuya aid elmi məqalələri, monoqrafiyaları, internet resurslarından götürülmüş materiallardan, Dövlət Stastistika Komitəsinin hesabatlarından, həmçinin şəxsi müşahidələrimiz əsasında əldə edilmiş məlumatlardan istifadə olunmuşdur.

## Fəsil I. Azərbaycan Respublikasında turizmin təşkilinin, idarə olunmasının və inkişafının regional və nəzəri aspektləri

### 1.1. Azərbaycanda və onun kurort-turizm regionlarında turizm işinin formalaşmasının təbii amilləri.

Təbii amillər dedikdə, təbii ərazi formaları, onların hissələri və xüsusiyyətləri landşaftın cazibədarlığı və tarazlılığı, özünəxas xüsusiyyətləri, obyektlərin görünüş və forması və. s başa düşülür. Təbii amillərə iqlim, hidroqrafik, relyef, fauna və flora ehtiyyatları daxil edilir. Bu ehtiyatların hər biri ayrı-ayrılıqda turizm amili kimi mühim əhəmiyyət daşıyır.

Relyef təbii rekreasiya ehtiyyatı kimi xüsusi əhəmiyyətə malikdir. Ərazinin forma komponentləri (dağlar, düzənliklər, çökəkliklər və s. ) öz cəlbediciliyi ilə turizmdə böyük rol oynayır. Bu pəncərədən yanaşdıqda ölkəmizin təbiəti zənginliyi və füsunkarlığı danılmazdır. Ümumiyyətlə, dağlıq ərazilər ölkəmizin relyefinin 2/3 hissəsini əhatə edir. Hesablamalara əsasən qeyd etmək olar ki, Azərbaycan Respublikasının ərazisinin 31 %-i 200 metrdən 1000 metr-ə qədər, 19,5 %-i 1000 metrdən 2000 metr-ə , 6,5 %-i isə 2000metrdən 3000 metr-ə qədər yüksəkliklər arasında, geri qalan 1%-i isə 3000 metrdən yüksəklikdə yerləşir. 3000 metr-dən yüksəkdə yerləşən ərazilərə Böyük Qafqaz dağları, Kiçik Qafqaz və Talış dağları aiddir (12).

Respublikamızın relyefinin 11%-i meşə örtüyündən ibarətdir. Meşəlik ərazilər əsas etibarı ilə dağlarda yayılmışdır. Böyük və Kiçik Qafqaz dağlarının yamacları xüsusilə enliyarpaqlı meşələrlə örtülüdür. Əlavə olaraq, meşəliklər Talış dağlarının yamaclarında formalaşmışdır. Landşaftın cəlbediciliyinin araştırılması həm nəzəri, həm də təcrübi cəhətdən əhəmiyyətlidir. Təbii mühitin keyfiyyəti həmçinin təbii mühitin insanın psixloji durumuna təsirinin müəyyənləşdirilməsi, istirahətin komfortluğu coğrafi sahədə yürüdülən tədqiqatların yeni, ən xüsusi aspektlərinin əsasını təşkil edir. Azərbaycan Respublikasının relyefində turizm cəhətdən əlverişli

paya sahib olan formalara Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən İlandağ (2415m) və onun ətrafındakı yarımsəhra-quruçöl iqliminə sahib olan düzənliklər, xüsusilə qış turizminin inkişaf etdiyi Şahdağ (4243m), Tufandağ (4205m) və gözəlliyi ilə hər kəsi heyran qoymağı bacaran Kəpəz dağlarını misal göstərmək olar.

Mütəxəssislər rekreasiya üçün iqlimin tibbi-bioloji şəkildə qiymətləndirilməsin də, birinci növbədə insan orqanizminə göstərdiyi təsiri və komfortluğunu nəzərə alırlar. İqlim deyildikdə müəyyən yer üçün havanın uzun müddətlik vəziyyəti nəzərdə tutulur. Bunun səbəbi isə ondan ibarətdir ki, Troposfer qatının aşağı təbəqəsində bəlirli ərazi və vaxt müddətində baş verən dəyişikliklərə insanlar, daha sürətli reaksiya verir (7). Ölkəmizin ərazisinin mülayim iqlim qurşağı və subtropik iqlim qurşaqlarının birləşdiyi sahədə yerləşməsi, başqa sözlə onun iki iqlim qurşağında yerləşməsi təbitəini daha füsunkar edir. İqlim əmələ gəlməsində atmosfer sirkulyasiyası, günəş radiasiyası, relyef xüsusiyyətləri, coğrafi enlik, okean və dəniz cərəyanları və s. amillər böyük təsir göstərir. İqlim ünsürlərinin – rütubət temperatur, külək və. s-in paylanmasını bu amillər müəyyən edir. Ölkəmizin ərazisinin əksəriyyəti subtropik iqlim qurşağında, Böyük Qafqaz dağlarının şimal-şərqi isə mülayim iqlim qurşağındadır.

Kiçik Qafqaz dağları cənubdan gələn quru tropik isti havanın qarşısını kəsir və təsiri zəifldədir. Böyük Qafqaz dağları isə, şimaldan gələn soyuq hava axınının təsirini Azaldır. Xəzər dənizi respublikamızın iqliminin mülayimləşməsində, həmçinin Xəzər dənizinin də təsiri güclüdür. Mövsümün dəyişkənliyini və uzunluğunu ölkəmizdə aydın şəkildə müəyyənləşdirmək qeyri-mümkündür.

Abşeron yarımadasının ovalıqlarında martın ayının əvvəllərindən etibarən Yaz fəsli başlayır. Yay fəsli isə May ayının sonlarından başlayaraq, oktyabr ayının ortalarına qədər davam edərək ən uzun fəsil kimi bilinir. Oktyabr ayında enən istilər və aramsız yağan yağışlar artıq Payız fəslinin göstərgəsidir. Payız fəslində havalar quru və isti keçdiyi üçün, payız fəslinə ölkəmizdə "məxməri" fəsil deyilir. Xüsusən dağlıq bölgələrdə payız fəslində hava tez-tez yağışlı olması ilə seçilir.

Respublikamızda qış ayları mülayim keçir. Düzənliklərdə temperatur adətən sıfırdan yuxarıda olur. Qış fəsli isə güclü şaxtalar ilə tanınır. Yanvar və Fevral ayları ən soyuq aylardır. Hər zaman ölkəmizin 11 iqlim tipindən 9-una sahib olması ilə qürurlanırıq. Bu təbii haldır ki, mövcud iqlim tipləri Azərbaycan coğrafiyasını daha da fərqli və füsunkar edir. Böyük və Kiçik Qafqaz dağlarının Kür-Araz düzənliyinə birləşən hissəsində, Samur-Dəvəçi ovalığı, Qobustan ərazisinin də daxil olduğu Abşeron yarımadasında subtropik iqlim tipi, yarımsəhra və quru çöl iqlimi hakimdir (3). Naxçıvanın iqlimi buna bənzərlik göstərsə də, soyuq qış iqlimi Naxçıvanın Arazyanı zonalarında daha üstündür. Böyük və Kiçik Qafqazın ətəkləri qışı quru, mülayim isti iqlimə malikdir.

Bundan başqa ölkəmiz hidroloji turizm ehtiyatları ilə də zəngindir. Respublikamızın ərazisindən 1200-dən artıq iri və xırda ölçülərdə çay axır. Bu çayların əksəriyyəti dağlardan axdığı üçün səsli hündür şəlalələr əmələ gəlir. Aranda eləcə də dağlıq zonalarda yerləşən çaylar bu kimi bölgələrin əsas bəzəyi və potensial turizm ehtiyatıdır. Xəzərin dənizinin sularında və ona tökülən bir çox çaylarda dəyərli balıq növləri vardır.

Respublikamız həm də müalicəvi əhəmiyyətli mineral su ehtiyatları ilə zəngindir. Bu zənginliyə görə Respublikamızın ərazisini "mineral sular muzeyi" adlandırırlar. Dünyada məhşur olan “Karlovi Vari” suları qədər keyfiyyətli mineral və isti bulaqlar-Kəlbəcər rayonu ərazisində yerləşən İstisu, Naxçıvanda Badamlı, Vayxır, Sirab mineral bulaqları respublikamızla yanaşı uzaqlarda da məşhurdur.

Abşeron yarımadasında Şıx və Suraxanı, Dəvəçi rayonu ərazisində Qalaaltı, Culfa rayonunda Turşsu müalicəvi əhəmiyyəti nəzərdə tutulduqa fərqlənən mineral sulardan bəziləridir. Böyük Qafqazın şimal-şərq və cənub şərq yamaclarında Talış dağlarında isə termal bulaqlar üstünlük təşkil edir.

Uzun müddətdir ki, təbii palçıqlardan hərəkət-dayaq aparatı, əsəb sistemi xəstəliklərinin müalicəsi üçün xüsusi istifadə olunur. Bunların arasında, əsas yeri Naftalan müalicəvi suları tutur. Azərbaycanın günəşli ölkə adlandırılması da təsadüfi deyil. İl boyunca günəşli günlərin miqdar və sayına

görə Respublikamız İspaniya, İtaliya və Yunanıstan kimi ölkələrlə müqayisə edilir. Respublikamızın şərq ərazisi boyunca 825 km uzunluğunda yer tutan Xəzər dənizinin sahillərinin istirahət zonasın kimi istifadə olunması üçün bir çox şərait mövcuddur. Xəzər dənizinin eyni zamanda flora və faunası da endemik bir çox növlə zəngindir. Hətta digər balıqlardan qədimliyinə görə fərqlənən nərəkimilərin 90 faiz ehtiyatı bu dənizdə yaşayır (9).

Abşeron yarımadasının paytaxtımızın ətrafı boyunca uzanan qumsal çimərlikləri xarici turistlər arasında böyük şöhrətə sahibdir. Həmçinin, Respublikamızın Yalama-Xaçmaz zonasında yerləşən çimərliklərdə sahil zolağında yerləşən enli yarpaqlı meşə zolaqları daha çox turisti cəlb edir.

Azərbaycan Respublikasının təbii ehtiyatları arasında xüsusi əhəmiyyətə malik olan fauna və flora (bitki və heyvan örtüyü) xüsusi turistlər üçün son illər daha da maraqlı gəlməyə başlamışdır. Ölkəmizdə dövlət qoruqlarının əsasında yaradılmış 8 Milli Park mövcuddur. Bu Milli Parklar 2002-ci ildən başlayaraq yaradılmışdır. Milli Parkların əsasının qoyulmasında məqsəd ekoloji tarazlığın saxlanması, ətraf mühitin və tarixi abidələrin qorunmasıyla yanaşı ekoturizmin inkişaf etdirilməsi, ölkənin təbiətinin daha da zənginləşdirilməsindən ibarətdir. Ölkəmizdə yerləşən Milli Parklar əsasən turist marşrutları üzərinə salınmasına baxmayaraq onlar dan hal-hazırda turizm məqsədilə yetərli istifadə olunmur.

Buna görə də Milli Parklarımızda turizm infrastrukturunun düzəldilməsi, lazımi kadr ehtiyacının gücləndirilməsi şərtdir.

Turizm məqsədli Milli Parklardan istifadə Avropa ölkələri və Amerikada üstün formadadır. Milli Parklarımızda piyadalar üçüncığırların salınması, informasiya mənbələrinin yaradılması, turların təşkili, velosiped zolaqlarının müəyyənləşdirilməs, turizm məqsədli istifadə üçün uyğun olardı.

Ölkəmizdə mövcud olan Milli Parkların icmalı, onlardan turizm resursu kimi istifadə əhəmiyyəti aşağıdakı kimidir:

1- **Sahəsi: 54364 ha olan Şirvan Milli Parkı**: Şirvan düzü. 2003-cü ildə yaradılmışdır. Əsas məqsəd düzənlik landşaftının və ceyranların, fərqli su quşlarının fauna

növlərinin qorunub saxlanmasıdır.

Burada 230 quşailəsi, safsar, ceyran donuz, porsuq, çaqqal, tülkü,vəhşi pişik, canavar, porsuq və.s tipli fauna növləri mövcuddur.

Bu Milli Park ölkəmizdə mövcud qərb və cənub turist marşrutlarının tam olaraq üzərində yerləşir.

2. **Ağgöl Milli Parkı**. 2003cü ildə Ağgöl yasaqlığının tərkibində yaradılmışdır. Sahəsi 17944 hadır. Beynəlxalq əhəmiyyətə malikdir. Əsas məqsədi bataqlıq bölgələrini həmin əraziyə aid yarımsəhra landşaftını, göl ətrafında yerləşmiş nəsli kəsilməkdə olan faunanı qorumaqdan, Ətraf ərazilərin monitorinqindən, əhalinin ekoloji baxımdan maarifləndirilməsindən, ekoturizmin inkişafını üçün çalışmaqdan ibarətdir. Milli Parkın faunasına 200 növə yaxın köçəri quşlar, məməlilərdən canavar, tülkü, çöl donuzu, çaqqal, məməlilərdən canavar daxildir.

Lakin, bu şəraitə baxmayaraq, hələ də Milli Parkda turizm infrastrukturu yerləşdirilməmişdir və ekoloji turlar hələ ki, təşkil olunmur.

Ağgöl Milli parkı ekoturizmdə istifadə üçün geniş potensiala malikdir.

Milli Parkda informasiya mərkəzinin yaradılması uyğun qayıqlardan istifadə ilə ekskursiyaların təşkil edilməsi mümkündür.

**3.Ordubad Milli Parkı**. 2003cü ildə Ordubad yasaqlığının tərkibində yaradılmışdır. Sahəsi 12,1 min ha-ya yaxın olub, Zəngəzur dağlarının cənubu və cənub-qərbində 1000-3900m arası hündürlükdə olan əraziləri əhatə edir. Parkın yaradılma məqsədi müxtəlif təbii komponentlərin qorunması, endemik bitki və heyvan aləminin qorunub saxlanılması və turizm üçün münbit şəraitin ortaya qoyul masından ibarətdir.Park ərazisində yaşayan heyvanların çoxu Respublikamızın “Qırm ızı Kitabı” na daxil olmuşdur.

4.**Hirkan Milli Parkı**.2004cü ildə əsası qoyulmuşdur.Ərazisi 21,4min hektardan çox dur.Hirkan Milli parkı yaradılarkən əsas məqsəd kimi üçüncü dövr qalıq və endemik bitki aləminin mühafizə edilməsi, “Qırmızı Kitab”da mövcud olan tipik bitki və hey

vanların qorunub saxlanılması, ətraf mühitlə bağlı monitorinqlərin həyata keçirilməsi düşünülmüşdür.

**5- Altıağac Milli Parkı.**Eyni adlı qoruğun tərkibində 2004-cü ildə əsası qoyulmuşdur. Milli Parkın sahəsi 11000 ha-a yaxındır. Milli Parkın yaradılma məqsədi Böyük Qafqaz dağlarının cənub-şərqinin landşaftının, bitki və fauna növlərinin qorunması, bərpa edilməsi, monitorinqin keçirilməsi, Milli Park paytaxta yaxın olduğundan (120 km), burada ekoturizm üçün kütləvi turizmdə istifadə etmək mümkündür(8).

Milli Park ölkəmizin şimal turist marşrutunun üzərində yerləşdiyi üçün, eyni zamanda Şahdağ Milli Parkı ilə qonşu olduğundan turizm fəaliyyətinin münbit şəkildə aparılmasını təmin edir.

Adını sadaladığımız Milli Parklarla yanaşı Göygöl və Abşeron Milli parkları da turiz min təşkilində aparıcı rol oynaya biləcək təbii amillərlə zəngindir.

**6-Şahdağ Milli Parkı**-2006-cı il də əsası qoyulan park 115. 895 ha-lıq ərazini əhatə etməkdədir. Transsərhəd və endemik heyvanların üstünlük təşkil etdiyi bölgələrdə yaradılmışdır. Vaşaq, köpgər, turac kimi adı qırmızı kitabda olan heyvanlar qorunur.

Füsunkar və rəngarəng meşləri ilə seçilən parkın daha çox turist çəkə biləcəyinə inanıram.

## 1. 2 Turizmin müxtəlif formalarının (ekoloji, tarixi, kənd yaşıl turizm, məcarə, ekstremal və s.) inkişafının müasir vəziyyəti və perspektivləri.

Respublikamızın təbii-ekoloji bazası turizmin bir çox növlərinə ev sahibliyi etmək üçün əlverişlidir. Hal-hazırda Azərbaycan Respublikası ərazisində fərqli turizm növləri inkişaf etməkdədir. Buna baxmayaraq turizmin bir çox növü isə şərait olmasına baxmayaraq diqqətdən kənarda qaldığı üçün təəssüf ki, ölkəmizdə hələ ki, mövcud deyil. Ölkəmizdə fəaliyyəti mövcud olan turizm növlərinin bir hissəsi haqqında qısa məlumat verək.

**Mədəni turizm-** Mədəni turizm dedikdə təbii olaraq ağla ilk gələn paytaxtımız olur. Respublikamızın mədəniyyət turizmi potensialına paytaxtda milli rəqslər milli

musiqimiz- muğam, filarmoniya, incəsənət qalereyaları, dünya caz musiqisinin yaxşı inkişaf etməsi, geniş çeşitli, dadlı mətbəx nümunələri, fərqli dünyəvi, həmiçinin dini görüşlərə tolerant yanaşması ilə seçilən İslami yanaşma əlavə olaraq fərqli dinlərin həmahəngindən ortaya çıxan mozaika nümunələri daxildir.

Bakı şəhəri gözəl və tarixi abidələri, fərqli memarlıq üslubuna aid tikililəri binaları, yaşıl parkları, Qədim İçərişəhər və onu əhatə edən əzəmətli qala divarları, ecazkar dənizkənarı bulvar və.s ilə hamını heyran etməkdədir. Şəhərin mərkəzində Bakı buxtasına doğru açılan amfiteatr formalı tikililər mövcuddur. Hər hansı bir bölgənin mədəni turizmi onun qədimliyi ilə yanaşı bu qədimliyi necə qoruyub saxlamasından da asılıdır. Buna görədir ki, ölkəmizin müxtəlif bölgələrində 7000-dən çox qədim ölkə və beynəlxalq əhəmiyyətli tarix və mədəniyyət abidələri nəsildən-nəsilə çatdırılmaq üçün qorunub saxlanır. Bu abidələrin duyurulması ilə mədəni turizm həvəskarı olan turistlərə nümayiş yerləri kimi maraqlandıraraq onları cəlb etmək mümkündür.

**Biznes turizmi-** Bu növ turizmin inkişafında əsasən ölkə ərazisində mövcud olan mehmanxana və bu tipli yerləşdirmə yerlərinin imkanlarına ehtiyac duyuluur. Həmçinin müxtəlif şəhərlərdə mövcud olan Olimpiya mərkəzləri bu kimi tədbirlərin gerçəkləşdirilməsində istifadə oluna bilər. Paytaxtımızda dörd ulduzlu və beş ulduzlu hotel mehmanxanalardan Grand Hotel Europe, Excelent, the Crescent Beach, Hyatt, Park İnn və s. otelləri vardır. Eyni zamanda beynəlxalq hotel şəbəkələrinə daxil olan üç otel son zamanlarda istifadəyə verilmişdir (16). Paytaxtımızda bunlardan başqa onlarla üç ulduzlu otellər də mövcuddur. Old City Inn; İçəri Şəhər və.s. Bakıda yeni məkanda fəaliyyətə başlamış Binə və Sədərək Ticarət Mərkəzləri, beynəlxalq alış-veriş mərkəzləri, müxtəlif sayda müasir formalı ticarət (Caspian, Sahil Xətai və s. ) mərkəzləri- Mall-lar fəaliyyət göstərməkdədir. Paytaxta İrandan, Dağıstandan və Respublikanın müxtəlif regionlarından biznes məqsədilə gələn turistlərin sayı artmaqda davam edir. İpək Yolu, son on illikdə fəaliyyətə düşən şimal-cənub dəhlizi və Ümumdünya dəniz ticarəti limanının fəaliyyətə başlaması ilə ölkəmizdə biznes turizminin yeni mərhələsi fəaliyyətə başlayır.

Ölkəmizdə keçirilən müxtəlif mövzulu toplantı və yığıncaqlar turizm gəlirlərindəki artıma əsaslı dəstək olur.

İpək Yolunun üzərində yerləşən, mədəni və tarixi imkanlar aləminin keçid qapısı kimi bilinən Respublikamız, alternativ mərkəzlər nəzərdə tutulduqda, nisbətdə daha aşağı maliyyə üstünlüyündədir.

Konqreslərin təşkilində istifadə etmək üçün dörd və beş ulduzlu mehmanxana və otellər həmçinin çox sayda toplantı salonları, bizznes saraylar istifadədədir.

Bunlardan Hyatt Regency, Park Hyatt, Excelsior, Park Inn, Heydər Əliyev adına Respublika Sarayı, Qrand Avropa, Meridian, İçəri Şəhər, İrşad, Azcot, Old City Inn, Novu Dom, Lodge, Nur, Respublika, Azərbaycan, Elite, Abu Arena, Delfin, Crescent Beach Hotel, Diplomat, Oazis və s. nümunə kimi göstərilə bilər (14).

Paytaxtımızda mövcud olan Heydər Əliyev adına İdman və Konsert Kompleksində sonuncu 15-20 ildə, müntəzəm şəkildə onlarla beynəlxalq sərgilər və beynəlxalq konfranslar keçirilir.

**Sağlamlıq turizmi**

Respublikamızda ənənəvi ilə yanaşı həm də müasir müalicə şərait və imkanları mövcuddur. Azərbaycanda minlərlə isti və mineral bulaqlar mövcuddur. Bunların arasında ən məhşurları Badamlı, Turşsu, İstisu, Qalaaltı, Şıxburnu, Qalaaltı, suları - isti və müalicəvi su mənbələridir. Böyrək daşı, qaraciyər, öd, mədə-bağırsaq və s. kimi xəstəliklərin müalicəsi üçün Naxçıvan ərazisindəki təbii bulaqlardan istifadə edilə bilər. Dərman bitkiləri (itburnu kolları, kəklikotu bitkisi, çobanyastığı çiçəkləri, yemişan meyvəcikləri və gülləri, çobansüzgəci, razyana meyvəcikləri və palıd ağacı qabığı) vasitəsilə müalicəni misal göstərmək olar.

Naftalan nefti ölkəmizin çox böyük kurort resurslarındandır. Bu neftin köməyi ilə hərəkət orqanlarında və damarlarda xəstəliklər, həmçinin yel uğurla müalicə edilə bilər. Eyni zamanda, maddələr mübadiləsinin pozulması, ginekoloji xəstəliklərin müalicəsində də sözügedən neftdən geniş şəkildə istifadə olunur.

Ölkəmizin ərazisində subtropiklə yanaşı mülayim iqlim qurşaqları, sərt kontinental və rütubətli subtropik iqlim tipləri mövcuddur. Bu amil ürək-damar sistemi xəstəlikləri ilə yanaşı bir sıra başqa xəstəliklərin müalicəsi üçün yararlıdır. Bu tip müalicə üsulunun əsas yollarını helioterapiya, aeroterapiya təşkil edir. Respublikamızda bu kimi ərazilərə Böyük və Kiçik Qafqazın fərqli hündürlükləri ilə yanaşı Xəzər dənizi sahili boyunca uzanan ərazilərdə rast gəlmək mümkündür.

Böyük Qafqaz dağlarının müsbət iqlimli rayonları kurortoloji baxımdan əsaslı bir çox xüsusiyyətə malikdir (11).

Ölkəmizdə yararlı kurort amillərindən biri də çoxlu miqdarda palçıq yataqlarının olmasıdır. Azərbaycan Resppublikasının ərazisində ərazisində 250-300 arası palçıq yataqları mövcuddur. Bu yataqlar forma və quruluşuna görə iki yerə bölünür: təpəlik və lilli. Lilli yataqlara Abşeron yarımadasında rast gəlmək mümkündür. Müasir müalicə imkanları dedikdə səhiyyənin rolunu göz ardı etmək mümkün deyil. Ölkəmizdə son on illikdə bir neçə keyfiyyətli və təchizatlı səhiyyə mərkəzləri istifadəyə verilmişdir. (Mərkəzi Klinik Xəstəxana və regionlarda istifadəyə başlamış ARDNŞ-nin müalicə-diaqnostika mərkəzlərini və s.) Bu mərkəzlərdə müasir müalicə imkanları mövcuddur.

Tibbi turizm növünün başlıca problemi sanatoriya-kurort müəssisələrində əsasən qaçqın və məcburi köçkünlərin köçürülməsidir ki, 6 Fevral 2009 da imzalanmış AR-də kurortların inkişafı üzrə dövlət əhalinin yeni salınmış şəhərciklərə köçürülməsi və 6 fevral 2009-cu il tarixində təsdiq edilmiş Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üçün Dövlət Proqramının həyata keçirilməsi sağlamlıq turizmi sahəsində yeniliklərə səbəb olacaqdır.

**Ekoloji turizm**

Ölkəmizin geniş flora və faunası böyük ekoturizm potensialı yaratmaqdadır. Ölkədə 11 iqlim tipindən 8-i mövcuddur. Respublikamızın ərazisində 4100-ə yaxın fərqli bitki çeşidləri var. Ölkəmizdə çox sayda floristik bölgələrin olması hazırkı təbii şəraitin müxtəlifliyi ilə əlaqəlidir. Kür çayının sahillərindəki toqay meşələri həmçinin

Araz və Alazan çayları da nadirdirlər: yarımsəhra düzənliklərindən keçən bu çaylar sel dövründə çay və yeraltı sulardan qidalanırlar. Geniş ağac örtüyü– Gazaoğlan, Cirdahan, Babanlar, Varvaranın əksər hissəsini tutmaqla bundan əlavə, sözügedən ağaclar torpaqları qoruyurlar (6).

Azərbaycan ərazisinin 10-15 faizi hündürlüyü 600-700 m-dən 1800 m-dək olan dağ meşələrindən ibarətdir.Həmin meşələr enliyarpaqlı olmaqla əsasən vələs, fıstıq, ağcaqayın və palıd ağacları ilə zəngindir.

Hal-hazırda meşələrimizin sahəsi 1290 min hektar olmaqla ölkəmizin ərazisinin 11,4 faizini tutur. Ölkəmizin meşə ehtiyatlarının 592 min hektara yaxın hissəsi Böyük Qafqaz regionunda, 176 min hektarı Kiçik Qafqaz regionuda, 30 min hektarı isə Kür-Araz ovalığındadır. Respublikamızda adambaşına 0,12 hektar-a yaxın meşə sahəsi düşməkdədir.

Ölkəmizdəki qoruqların tam sahəsi 197min hektara qədərdir. Bu dövlət qoruqlarına İsmayıllı, Qızılağac, Hirkan, Qobustan, Şirvan, Qaragöl, Pirqulu, Qarayazı, Zaqatala, Ağgöl, Altıağac və İlisu kimi qoruqlar daxildir.

Bunlardan başqa, ölkəmizdə tam sahəsi 240 min hektar yasaqlıq əraziləri mövcud olmzaqdadır. Yasaqlıqlar təbii komplekslərin elə bir formasıdır ki, ərazi daxilində xüsusi qanunla qorunır. Qoruqlardan fərqi isə bütün kompleksin deyil xüsusi komponentlərin ayrı ayrılıqda qorunmasıdır. Ölkəmizdə Şəki, Daşaltı, Arazboyu Qubadlı, Laçın, Qarayazı-Ağstafa, Şəmkir, İsmayıllı, Qəbələ, Qusar, Abşeron, Zuvand, Qızılca, Ağgöl, Bəndovan, Gil adası, Bərdə kimi yasaqlıqlar mövcuddur. Azərbaycanda milli parklar da ekoloji turizmin inkişafında rol oynaya bilər. Respublikamızda H. Əliyev adına Ordubad, Ağgöl, Hirkan, Altıağac və Şirvan milli parkları vardır. Bu gün tam sahəsi 890 min hektardan çox Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri, eyni zamanda, 12 Təbiət Qoruğu və 8 Milli Park, 25 Dövlət Yasaqlığı mövcud olmaqla və ümumi sahəsi Respublika ərazisinin orta hesabla 10,5 faizindən ibarətdir.

Lerik və Yardımlı şəhərlərində ecazkar şəlalələr, Göygöl, Batabat (NMR) kimi göllər vardır. (6)

Ölkəmizdəki bitki növləri yer kürəsində mövcud bitki növlərinin 0,80 faizdən çoxunu, Qafqazın bitki örtüyünnün isə 66 faizə qədərini təşkil etməkdədir. Dünya bitki örtüyünü nəzərə alsaq sadəcə Respublikamızın ərazisindəki bitki örütüyünün (endemik bitkilər) növlərinin sayı 360-dan çoxdur. Endemik bitkilər ölkəmizin bitki örtüyünün təqribi hesabla 9 faiz-ə yaxınını təşkil etməkdədir. Talış dağları, NMR ərazisi endemik bitki örtüyü çoxillik ot növləri mövcuddur. Respublikamızın bitki örtüyü üçüncü dövrün qalıq bitkiləri ilə zəngindir. Bu növün xüsusi məskəni Talış dağlarıdır. Buna baxmayaraq, ölkənin başqa sahələrində də bəzi növlərə (Böyük Qafqazda, Ceyrançöldə və s.) rast gəlmək mümkündür. Bu tiplərə şabalıd-yarpaq palıd, Qafqaz xurması, qaraçöhrə, şümşad, dəmirağac, Eldar şamı və s. misal göstərmək olar. Ölkədə flora ilə yanaşı zəngin fauna ehtiyatlarıda mövcuddur. Bu ehtiyatlar orta hesabla 20min növlə qiymətləndirilir.Respublikamızın təbii şəraitin in fərqliliyi heyvanlar aləminin fərqliliyinə səbəb olmuşdur. Respublikamızda 600-dən artıq heyvan növü var, bu isə öz növbəsində dünyadakı heyvan növlərinin 5,6 fai zidən çoxu deməkdir (10).

Eyni ilə bitkilərdəki kimi, ölkəmizin heyvanlar aləminə ekoloji güclü təsir göstərmişdir. Bir çox zoocoğrafi hissələr, oraya məxsus olan bitki növləri ilə səciyyələndirilə bilər. Buna misal kimi quru ovalıqların gəmirici faunaya sahib olması və sürünən növlərin çoxluq təşkil etməsi göstərilə bilər. Düzənliklərdə Orta Asiya ceyranlarını görə bilərik. Lənkəran düzənliyinin rütubətli meşələrində 200-dən çox quş növləri qışlamaq üçün toplaşmaqdadır və bu da öz növbəsində bir milyondan çox quşun miqrasiya zamanı bir arada olması deməkdir.

Böyük Qafqazla eyni zamanda Kiçik Qafqaz dağlarında da fauna fərqləri rəngarəngdir. Dağların ətək hissələrində gecə quşlarına tez-tez rast gəlmək olar. Çəmənliklərində isə yerli zubrlara və fərqli növ dağ keçilərinə rast gəlinə bilər. Kiçik Qafqaz dağlarında vəhşi qoç və dağ keçiləri rastınıza çıxa bilər. Dağ çəmənlikləri isə saqqallı qırğı və çaqqallara məxsusdur. Talış dağlarına İrandan keçid edən bəbir və oxlu kirpilər də buranın daimi sakinlərindən olmuşdur (6).

Xəzər dənizi isə fərqli çeşitdəki su canlılarının yaşayış bölgəsi olmuşdur. Bunlara siyənək, nərə, ağ nərə balığı, uzunburun, Xəzər qızılbalığı, cerix və. s kimi növlər daxildir və ovlanır. Kür çayındakı ehtiyyatların 50 növündən 23-nü ticarət əhəmiyyətli istifadəsi mümkündür. Suf balığı çox nadir olduğu üçün ona yalnız sahil xəttində rastlamaq olar. Mart-aprel aylarında cənub tərəfdə suitilərin miqrasiyasını müşahidə etmək olar. Suitilər oktyabr, noyabr aylarından etibarən şimala doğru geri qayıdırlar. Bitki və heyvan növlərinin nadir və qiymətli olanlarının qorunması üçüm qoruqlar fəaliyyətdədir. Azərbaycanın "Qırmızı Kitab"-ında 100-dən çox heyvan növləri vardır.

**İstirahət və əyləncə turizmi**

İstirahət turizmi nəzərdə tutulduqa paytaxtımızda və regionlarda 5 ulduzlu otell ər, restoranlar və kafelər fəaliyyətdədir.Azərbaycanın başqa regionlarında da istirahət üçün fərqli istirahət zonaları mövcuddur.

Azərbaycanda istirahət sahəsində əlimizdə olan müasir nailiyyətlər mədəni əyləncə mərkəzlərinin beynəlxalq standartlara uyğun olması, turizmin ekstremal forması üçün xüsusi imkanlar yaratmaqdadır. Əyləncə və istirahət mərkəzlərinin sayı hər keçən gün daha da artmaqdadır. Xəzər dənizi sahildəki qumsal, suda fərqli əyləncələr hər keçən il bu əraziyə yetərli turist cəlb etməyə uyğundur (12).

**Dağ və qış turizmi**

Dağ turizmi ölkəmizdə çox inkişaf etməsə də ümid vəd edir. Dağların təmiz havasından, sahib olduğu digər imkanlardan faydalanmaq məqsədilə dağ və qış turizmi keçirilir. Ölkəmizin ərazisinin yarısından artıq hissəsi dağlardan ibarətdir bunun böyük payı sərhədlərə düşür. Qafqaz sıra dağlarında ən hündür zirvə Bazardüzüdür cənub tərəfi isə Azərbaycanadək uzanır. Cənub-qərbdə Gürcüstanadək uzanır. Qafqaz dağları ilə sərhəddəki hissə Cənubi Qafqaz dağları və cənubdan Talış dağlarının əhatəsindədir. Respublikamız qərb tərəfdən, Böyük və Kiçik Qafqaz Dağları ilə, şərq hissədən isə Kür-Araz ovalığının qırağındakı, Lixlə bağlanmışdır (5).

Ölkəmizdə qış turizminin də inkişaf potensialı vardır. Dünyada qış turizminin əsas mərkəzlərindəki dağlıq landşaft Naxçıvan MR-in landşaftına oxşardır. Qafqaz dağları fonunda mənzərəli kəndlər yaxınlığındakı evlərində (pansion) qalmaq imkanları mövcuddur. Qış və dağ idmanlarına görə uyğun və cəzbedici yerlər Qusar və Şamaxı rayonlarıdır.

İnkar edilməz faktdır ki, turizmin inkişafı yüksəklikdə yerləşən bölgələrimizin də inkişafı inkişafı üçün mühim əhəmiyyət kəsb etməkdədir. Ölkəmizin şimal- şərqində, yüksəkdə yerləşən Qusar və Şahdağın geniş ətəkləri turizm potensialına görə uyğundur. Ölkəmizdə artıq 10. 000 turist üçün uyğunlaşdırılan Şahdağ turizm kompleksi fəaliyyətdədir.

**Çimərlik turizmi**

Ölkəmizin şərq sahilləri boyunca 825km ərazidə uzanan Xəzər Dənizi çimərlik turizminin bir mnömrəli məkanıdır.400min kv/kmdən artıq su səthinə sahib olan Xəzər dü nyanın ən böyük axarsız gölüdür.Xəzər meridianal şəkildə iki qitənin sərhədləri boyu nca 1200 km uzunluğunda bir çökəklikdə yerləşmişdir.

Fauna ehtiyyatları ilə də zəngin Xəzər dənizi çox qiymətli balıq növlərinin mərkəzidir və əhəmiyyətli təbii balıq saxlama hövzəsidir.

Dünyada mövcud olan nərə balıq ehtiyatının 80 faizdən çoxu qara kürü istehsalının isə 90 faizə yaxını bu hövzənin payına düşür.

Xəzər dənizinin sahili iqlim zonası təbii şəraitinə və balneoloji imkanlarının rəngarəngliyinə görə, Xudat-Yalama sahili və Abşeron yarımadasının dənizsahili iqlim-kurort zonası olmaqla iki sahil zolağına bölünür (17).

## Fəsil II. Azərbaycan turizminin mövcud vəziyyəti və inkişaf perspektivləri

### 2. 1. Azərbaycan Respublikasında turizmin inkişaf dinamikası

Müstəqilliyini bərpa etdikdən sonra Respublikamızınn qarşısında dövlətin iqtisadi əsaslarının qaldırlması kimi böyük bir vəzifəsi dururdu. SSRİ-nin iflası ilə birlikdə bu nəhəng imperiyanın sabit iqtisadi məkanı dağıldı. Bununla bağlı olaraq, bir yandan müstəqilliyə qovuşmaqla əlaqədar yeni yaranmış ölkə iqtisadiyyatını yenidən formalaşdırmaq, talana məruz qalmış təsərrüfatı dirçəltmək lazım idi. Uyğun əlverişli təbiəti, bol təbii ehtiyatları və işçi qüvvəsi, zəngin tarixi və mədəniyyəti olan Respublikamızın iqtisadiyyatı güclü potensiala sahib idi. Mövcud böhran şəraitində bu imkanların düzgün istifadəsi və idarə edilməsi xüsusi yanaşmaya ehtiyac duyurdu. Respublikanın iqtisadi potensialının əsas hissəsini neft və qaz ehtiyatları tutsa da, bu kimi ehtiyatlara güvənərək iqtisadiyyatın təkyönlü inkişafına təkan vermək, gələcəkdə yaranacaq problemlərə şərait yaradır. Respublikamızda iqtisadiyyatın xüsusi perspektivə sahib sahələrindən biri turizm sənayesinin inkişafı idi. Son on illikdə beynəlxalq turizm bazarı struktural formada inkişafının ən üst pilləsindədir. Dünyada ÜDM-in 9%-ni beynəlxalq turizm təşkil etməkdədir. Rəsmi rəqəmlərə görə 266 milyon nəfər bu sektorda çalışmaqdadır. İstər turizmin dünya iqtisadiyyatında rolu, həm də Azərbaycanın sahib olduğu turizm potensialı bu sahənin qeyri-neft sektoruna alternativ kimi göstərilməsinə gətirib çıxarmışdır. Bu sahənin inkişafı üçün ilk addımlar 1991-ci ildə Nazirlər Kabineti daxilində Turizm Şöbəsinin yaradılması ilə başlamışdır. Dirçəliş isə 1990-cı illərin sonlarındaı növbəti əsrin başlarında baş vermişdir. 1999-cu ildə "Turizm haqqında" qanunun qəbul edilməsi ilə bu mərhələ daha da irəliləmişdir. Bu hadisənin ardınca turizm sahəsində daha böyük irəliləyişi 2001-ci ildə Respublikamızın ÜTT-yə qoşulması ilə baş vermişdir və bu ölkəmizin beynəlxalq miqyasda fəaliyyətinin artması ilə nəticələnmişdir.

2000-ci illərin ortalarında iqtisadi inkişafda əldə olunmuş nailiyyətlər, transmilli layihələrin işə düşməsi sosial-iqtisadi həyatın bütün sahələrində geniş fəaliyyət üçün şərait yaratdı. Ölkədə aparıcı neft sektoruna alternativ ola biləcək sahələrdən biri kimi turizmə də xüsusi diqqət yetirilir, onun güclü maddi-texniki bazasının yaradılması, idarəedilməsi sisteminin təkmilləşdirilməsi, informasiya bazasının yaradılması, bu sahədə xidmətin müvafiq səviyyəyə qaldırılması, onun üçün peşəkar kadrların hazırlanması istiqamətində işlərə təkan verildi.

2001-ci ildə Gənclər və İdman Nazirliyi sözünə Turizm əlavə olunmuşdur. 2006-da isə turizm sahəsinin idarəsi Mədəniyyət və turizm nazirliyinə tapşırılmışdır. Bu ildən etibarən dövlət proqramları hazırlanıb həyata keçirildi. Bu proqramların ilki 2002-2005-ci illərdə bu sahənin inkişafını nəzərdə tutan proqramı olmuşdur. 2000-ci ildən ölkəyə gələn və gedən turistlərin sayı artır. 2006-cı ildə Azərbaycan Turizm İnstitutu istifadəyə verilir. Bu tədbirlərin nəticəsi olaraq 2008-ci ildə qonaqlarımızın sayı 1 milyondan artıq olmuşdur. 2013-cü ildə bu göstərici 2508. 8 min-ə çatmışdır. 2014-cü ildə isə bu göstərici 1,4 % artmışdır.

Bu illərdə Azərbaycandan xaricə gedən turistlərin sayı da görünən şəkildə artmışdır. Otellərin sayında və eyni zamanda keyfiyyətində baş verən yüksəlmə, nəqliyyat sahəsində müasirləşmə, yeni istirahət zonalarının ortaya çıxması, informasiya işlərinin genişləndirilməsi müsbət effekt ortaya çıxarmışdır. 2004-cü otel sayıları 238 olduğu halda 2013-cü ildə bu rəqəm 292 otel artaraq 530-a çatmışdır. Hava nəqliyyatı probleminin həlli üçün regionlarda hava limanları tikilib istifadəyə verilmişdir. Turizm sahəsindəki inkişaf ölkəyə xarici mehmanxana brendlərinin də marağını cəlb etmişdir (16).

Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair" Dövlət Proqramı 2010- cu ildə qəbul olundu. Sözügedən proqramda region turizminin inkişafına daha çox diqqət ayrılmışdır. Turistlərin gəlməsin də böyük bir problem olan sənədləşmə işlərinin sadələşdirilməsi üçün xüsusi proqram həyata keçirilmişdir. 20 noyabr 2012-ci ildə Azərbaycan Respublikası Prezidentininimzaladığı tədbirlərdə Respublikamıza gələn turistlərin viza işlərinin sadələşdirilməsi üçün 2577 nömrəli

Sərəncam-imzalanmışdır.
Əsas olaraq 2011-ci ilin turizm ili elan edilməsi bu sahəyə olan qayğının son on ildə nə qədər atdığının göstərgəsidir. Azərbaycan turizm sahəsində beynəlxalq əlaqələrini gücləndirir. Bunun üçün Turizm və Mədəniyyət Nazirliyi ÜTT, Avropa Şurası, İKT, MDBTŞ, GUAM, Qara Dəniz İƏT və. s. beynəlxaq təşkilatlarla əlaqələr qurmuşdur. Hökümətimiz son dövrlərdə iqtisadiyyatda daha çox xarici investisiyanın rolunu artırmaq üçün bu istiqamətdə xüsusi önəm daşıyan addımlar atmışdır. Bu işin sürətləndirilməsində fərqli vasitələrdən istifadə edilməkdədir.

Bütün bu addımların nəticəsi kimi 2013-cü ildə ÜDM-də 1,343 milyon manat turizm və səyahətin payına düşür. Bu rəqəm 2. 4% təşkil edir. Göözləntilər nəticə verərsə bu nəticə 2024-cü ildə 5. 5%-ə dək artması müşahidə olunacaq. 2013-cü ildə bu sahəsində işləyən insanların sayı 95. 000 nəfəri keçmişdir, bu isə əməkqabiliyyətli əhalinin 2. 4%-i deməkdir. Çoxlu məbədlər, dini tikililər və ya ziyarətgahların təmir və bərpasına yönəlmiş tədbirlər artırlımaqdadır. Milli mədəni irsin təbliği və tədqiqatı istiqamətində işlər artırılmışdır.

Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixində imzaladığı Fərmanında təsdiqini tapan "Azərbaycan 2020: Gələcəyə baxiş konsepsiyasında turizmə xüsusi yer ayrılmışdır. Sözügedən Konsepsiya daxilində turizm infrastrukturunun inkişafı, beynəlxalq standartlarla örtüşən turizm sahələrinin genişləndirilməsi, turizm sahəsinin rəqabət qabiliyyətinin artırılması və ÜDM-də yer tutan çəkisinin yüksəldilməsinə yönəlik tədbirlərin həyata keçirilməsi nəzərə alınmışdır. Nazirlər Kabinetinin 2015-ci ildə baş tutan iclaslarından birində sosial-iqtisadi inkişafın yekunlarına həsr olunan müzakirədə İlham Əliyev turizmin inkişafını sürətləndirməyin şərt olduğunu xüsusi vurğulamışdır (2).
Aşağıdakı qrafikə və cədvələ görə:
A-Qəbul edilən və göndərilən turistlərin illərə uyğun sayı, nəfər
B-uyğun olaraq

C-qəbul edilənlər

D-göndərilənlər

E-Qəbul olunma və göndərilmə günlərə görə

F-uyğun olaraq

G-qəbul edilən

H-göndərilən

(21)

**Turizm müəssisələrində çalışan işçilərin sayı, nəfər**
***Number of employees in tourism enterprises, person***



Turizmin son illər üçün inkişaf göstəriciləri

| | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **A** | **45600** | **56294** | **59604** | **59720** | **69943** | **83680** | **101441** | **91 971** | **92,315** | **61,865** | **53,998** |
| B | | | | | | | | | | | |
| C | 14462 | 12357 | 19298 | 17019 | 17651 | 18850 | 23450 | 10 655 | 10,667 | 2,069 | 8,959 |
| D | 31132 | 43935 | 40359 | 42651 | 52252 | 64750 | 77981 | 81 346 | 81,647 | 59,966 | 45,060 |
| **E** | **218972** | **341512** | **358816** | **383489** | **458578** | **554773** | **674535** | **670 377** | **614** | **429** | **349486** |
| F | | | | | | | | | | | |
| G | 82867 | 55014 | 104484 | 109272 | 111237 | 126965 | 135868 | 58 163 | 57,961 | 8,162 | 33,056 |
| H | 136165 | 286468 | 254362 | 274167 | 347366 | 417863 | 538567 | 612 164 | 556,678 | 420,456 | 316,462 |

(21)

**1.22 Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər**

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər | 36,103 | 36,899 | 37,600 | 38,839 | 40,892 | 41,886 | 49,449 | 43,477 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi, milyon manat | - | - | - | - | 2,080.20 | 2,404.20 | 2,437.3 | 2 594,7 |
| Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə | - | - | - | - | 3.6 | 4.1 | 4.5 | 4.3 |
| Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat | 527.8 | 949.2 | 1,407.80 | 1,478.20 | 1,371.00 | 2,204.00 | 1,063.9 | 363 |

1-Turizm  sahəsində çalışan işçi sayı, nəfərlə

2-Turizm sahəsində yaradılmış əlavə dəyərin həcmi, milyon manatla

3-Turizm sahəsində yaradılan əlavə dəyərin ÜDM-də  xüsusi çəkisi, faizlə

4-Turizm sahəsinə qoyulan investisiyaların həcmi, milyon manatla

ÜTT-nin proqnozlrına əsasən deyə bilərik ki, 2020-ci ildə dünya üzrə bir milyard altı yüz milyon insanın turist kimi səyahəti, bu səyahət nəticəsində onların 2 trilyon dollara yaxın pul vəsaiti xərcləyəcəyi gözlənilir. Ümumdünya Turizm Təşkilatının-nin məlumatlarına əsasən dünya əhalisinin 3,5 faiz-ə yaxını turist kimi hərəkətdə olacaq. Bizim üzərimizə düşən isə bu fürsəti ölkəmizin xeyrinə çevirmək və hərəkətə keçəcək kütlənin fikrini ölkəmizin üzərinə çəkmək üçün əlimizdə olan bütün ehtiyyatlardan uyğun formada istifadə etməkdir (12,19).

## 2. 2. Turizmin regionların inkişafında və əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasında rolu.

Turizm sahəsində çalışan insanların maddi ehtiyaclarının yetərli səviyyədə təmini bu fəaliyyətin davamlı şəkildə təşkili üçün xüsusi əhəmiyyət daşıyır. Qloballaşan dünyada turizm məşğulluğun təmini zamanı  bir sıra sənaye və xidmət sahələri qədər yuxarı göstəriciyə malikdir. Beynəlxalq statistikaya  əsasən dünyada 210 milyondan artıq kadr sözügedən sahədə çalışır ki, bu  dünyada məşğulluq göstəricisinin 10 %-dən çoxunu təşkil etməkdədir. Dünya turizminin mövcud inkişaf tempinə görə demək olar ki, son illər ərzində bu rəqəm daha da artacaqdır. Bu göstəricilərə əsaslandıqda belə bir nəticəyə gəlirik ki,  turizm sənayesinin fərqli istiqamətlərinə görə fəaliyyət göstərməkdə olan bir sıra müəssisələrdə çalışan insan qüvvəsinin əməkhaqqısının düzgün şəkildə tənzimlənməsilə yanaşı ümumilikdə sözügedən sistemin yenidən düzgün formada qurulması yetərincə vacibdir. Turizm sahəsi ilə bağlı olan fərqli sahələrdə əməyin müxtəlif şəkildə qiymətləndirilməsi və buna uyğun müasir metodlarla əməkhaqqlarının hesablanması mütləqdir. Bu sənayeyə aid olan müxtəlif sahələrdəki əməkhaqqı sistemində yeni siyasət sözügedən

sahələrin rentabelliyi ilə birbaşa bağlı olmaqdadır. ÜTT-nin statistik məlumatlarına görə dünyada mövcud olan səfərlərin 45 %-i hava nəqliyyatı, 43 %-i isə avtomobil nəqliyyatının payına düşür ki, əmək qabiliyyətli əhalinin turizm sahəsində çalışanlarının əsas hissəsi bu iki sahə üzrə ixtisaslaşmışdır. Mehmanxana və otel sahəsində isə mövcud vəziyyət daha fərqlidir. Burada əməkhaqqı sistemi formalaşarkən mehmanxanaın yerləşdiyi yer və fəaliyyət göstərdiyi kateqoriyaya diqqət yetirilir. Bu tip müəssisələrdə menecmentdən fərqli olaraq işçi heyətinin əməkhaqqısı o qədər də yüksək olmur. Respublikamızın regionlarında və eləcə də paytaxtın özündə yerləşən mehmanxana və otel kimi obyektlərdə ixtisaslı kadrların olmaması çatışmamazlığı olduqca böyük problemdir (18). Ümumi şəkildə götürdükdə, turizm firmalarında fərqli şəkildə əməkhaqqı sistemi və yanaşması vardır. Bu sistemlərdən ən çox yayılanı daimi əməkhaqqı olsa da cüzi stabil əməkhaqqı + satışlardan verilən faiz sistemindən də ölkəmizdə çox istifadə olunur. Əsasən firmalarda turagent kimi fəaliyyət göstərən işçilərin əməkhaqqları çox zaman minimum əməkhaqqına yaxın olur. Bu işçilər daha çox satılan xidmətin bir hissəsinin olduğu bonus xarakterli ödəniş əldə edirlər. (3;5)



(21)

**1.4 Səyahət agentlikləri və turoperator fəaliyyəti ilə məşğul olan müəssisələrdə işçilərin sayı**

nəfər

| | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **İşçilərin sayı** | **779** | **1115** | **1174** | **1393** | **1418** | **1541** | **1730** | **1729** | **1,794** | **1,586** | **1,838** |
| ondan: | | | | | | | | | | | |
| turizm fəaliyyəti ilə məşğul olanlar | 612 | 745 | 749 | 1 136 | 1 159 | 1279 | 1473 | 1 515 | 1,567 | 1,308 | 1,472 |
| işçilərin ümumi sayından: | | | | | | | | | | | |
| dövlət müəssisələrində | 27 | 28 | 45 | 16 | 15 | 17 | 18 | 24 | 14 | 16 | 16 |
| qeyri-dövlət müəssisələrində | 752 | 1087 | 1129 | 1377 | 1403 | 1524 | 1712 | 1705 | 1,780 | 1,570 | 1,822 |
| o cümlədən: | | | | | | | | | | | |
| xüsusi | 696 | 1011 | 1055 | 1286 | 1345 | 1476 | 1596 | 1592 | 1,675 | 1,443 | 1,642 |
| xarici | 21 | 33 | 35 | 48 | 23 | 23 | 28 | 33 | 28 | 27 | 78 |
| birgə | 35 | 43 | 39 | 43 | 35 | 25 | 88 | 80 | 77 | 100 | 102 |

Uzun müddətdir ki, ölkəmizin mövcud turizm potensialının dünyada tanıdılması, turistlərin Respublikamıza daimi səfərlərinin təşkili, müxtəlif növ turizm fəaliyyətlərinin inkişafı, yeni və fərqli turizm infrastrukturunun əsasının qoyulması və. s sahələrdə əsaslı tədbirlər həyata keçirilməkdədir. Əsasən coğrafi mövqeyi, özünəxas olan iqlimi, bitki və heyvan aləmi, tarixi əhəmiyyətli abidələri ilə xarici turistlərin diqqətini çəkən regionlarımızda əhəmiyyətli sayılan bəzi tarix-mədəniyyət abidələrinin yenidən qurması, tarixi turizm marşrutlarının bərpası, müasir marşrutların salınmasi, yerləşmə obyektlərinin müasir standartlara cavab verəcək şəklə salınması, kimi proseslər reallaşdırılmaqdadır. Hökümət rəsmilərinin turizm potensiallı bölgələrə etdiyi səfərlər zamanı, tez-tez müasir turizm obyektləri, hotellər, restoranlar, istirahət mərkəzləri və sair tikilir və istifadəyə verilir. Bütün bu tədbirlər regionlarda yaşayan əhalinin işsiz kütləsinin, xüsusilə də gənclərin işlə təminində geniş imkanlar yaradır. Dünya ölkələrinin demək olar ki, hamısında turizm iqtisadiyyatın ayrılmaz parçasıdır. Bunun səbəbi aydındır ki, Turizm sektorunun inkişafı ilə büdcə gəlirlərinin artır, yoxsulluğun və işsizliyin sayı isə azalır. Mütəxəssislərin fikrincə turizm ölkəmizdə 52 sektora təsir edir. «Bu pəncəədən yaanaşsaq turizmin iqtisadiyyatda rolunu katalizator kimi qiymətləndirmək mümkündür (4).

Bunun nəticəsi olaraq 2003-cü ildə İdman və Turizm Nazirliyinin iştirakı ilə bölgələrə 4 əsas 3 əlavə olmaqla yeddi turizm marşrutu müəyyənləşdirilib. Əsas

marşrutlar Bakı-Xaçmaz, Bakı-Qazax, Bakı-Astara və Bakı-Balakən, digər marşrutlar isə Bakı-Naxçıvan, Bakı-Dağlıq Qarabağ, Bakı-Abşeron. Əsas olan marşrutların üzərində yerləşən rayonlarda fərqli turizm növlərinin inkişafını təmin etmək yolunda layihələr həyata keçirilir. Bunun üçün ilk olaraq sözügedən rayon beynəlxalq formada təbliğ olunur. Sözügedən layihələrin əsasları «Aleksandr Düma», «Şərab yolu», «Xalçaçılıq», Böyük İpək yolu» və «Azərbaycanda alman məskənləri» layihələridir. Son illərdə aparılan təhlillərin nəticəsində görünür ki, Respublikamızın turizm sektoru, qalxış dövrünü yaşayır. 2010-2015-ci illər arasında ölkəmizdə turizm müəssisələrinin miqdarında təqribi hesabla ildə 4,5 faiz, turizm sektorunda məşğulluq səviyyəsində isə il üzrə 6 faiz, turistlərin sayında isə isə 8,5 faiz-ə dək qalxma müşahidə olunmuşdur.

Turizm sahəsində ölkələr turistləri qəbul edən, yoxsa daha çox göndərən olmaları əsas tutularaq iki yerə bölünürlər. Birinci yerdə olan göndərən və ya donor ölkələr Danimarka, ABŞ, Almaniya,, İngltərə, Belçika kimi ölkələr daxildir. Qəbul edən, və ya başqa sözlə resipiyent adlanan ölkələr isə ABŞ, Fransa, Macarıstan, İtaliya daxildir.

ÜTT-nin ekspertlərinə görə turizmin inkişaf həddi ilə ölkənin iqtisadi vəziyyəti arasında sıx əlaqə vardır. Belə ki, turistlər daha çox iqtisadi vəziyyəti yuxarı olan ölkələrdə dincəlməyə üstünlük verirlər. Turizmin regionlar üçün faydası nə qədər çox olsa da hələki ölkə turizminin balansını regionlarla paytaxt arasında saxlamaq mümkün olmayır. Belə ki, son illərdə ölkəyə gələn turistlərin 75%-I öz istirahətini paytaxtda keçirməyə üstünlük verib.

**2016-ci ildə turistlərin yerləşdirmə vasitələrinə görə tərkibi, faizlə**

***Breakdown of accommodated tourists by types of accommodation in 2015, per cent***




**(21)**

## Fəsil III. Azərbaycan Respublikasında turizm fəaliyyətinin idarə olunmasının və tənzimənməsinin başlıca xüsusiyyətləri və çətinlikləri

### 3. 1. Turizmin inkişafının dövlət tənzimlənməsinin xüsusiyyətləri

Azərbaycan Respublikasında turizm sahəsində dövlət siyasətini Mədəniyyət və Turizm Nazirliyi həyata keçirməkdədir. Bu siyasət turizmin təşkili və idarə olunması prinsiplərinə söykənərək ölkə iqtisadiyyatında böyük rolu olan turizm sahəsinin inkişafına yönəlmişdir. Nazirlik və tabeli qurumlar tərəfindən Respublikamızın mövcud turizm potensialının dünyada tanıdılması, turistlərin ölkəmizə çoxsaylı səfərlərinin təşkil olunması, müxtəlif növ turizm sahələrinin inkişaf etdirilməsi, bununla bağlı hüquqi-normativ aktların tərtib edilməsi qəbul edilməsi, turizm sahəsində sahibkarlığın inkişafı, müasir tələblərə cavab verə bilən turizm infrastrukturunun salınması sahəsində məqsədyönlü və davamlı işlər görülməkdədir. Keçən illər ərzində Azərbaycanda turizm sahəsində onlarla beynəlxalq tədbirlər və seminarlar keçirilmiş buna uyğun olaraq gələcək yönl beynəlxalq marşrutlar işlənib hazırlanmışdır (1).

Daha əvvəlcə qeyd etdiyimiz «Respublikamızda 2002-2005-ci illər üçün turizmin inkişafına dair» Dövlət Proqramı sözügedən hüquqi-normativ aktlardan yalnızca biridir. Bu proqramın tələblərinə görə, bu sahədə beynəlxalq standartlarla uyuşan mehmanxanalar tikilib istifadəyə verilmişdir. Bundan başqa ölkəmizə bəzi beynəlxalq investisiya şirkətləri cəlb edilmişdir. Nəticə də respublikamıza gələn turist sayında kəskin artım müşahidə edilmişdir. Eyni anda, Prezidentin müvafiq Sərəncamına əsasən təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illər üzrə sosial-iqtisadi inkişafına yönəlik Dövlət Proqramının» sözügedən sahə üzrə bəndlərinin tələblərinə uyğun olaraq sahibkarlığın inkişafında lazımlı kreditlərin ayrılması, obyektlərin inşası üçün yardım, müxtəlif hüquqi sənədlərin hazırlanması üzrə işlər görülmüşdürAzərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi Respublika regionlarının sosial-iqtisadi inkişafının təmininə dair ardıcıl Sərəncamların turizm üçün nəzərdə tutulan bəndlərinin bəndlərinin icrasının təmini

məqsədilə, Masallı, Tovuz, Gədəbəy, Lənkəran şəhəri, Astara kimi rayonların turizm sahəsi üzrə inkişaf planı hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir (24). Əlavə olaraq, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən elan edilmiş tenderdə qalib olan «Caspian Group Consalting» firmasını mütxəsəsisləri ilə ABŞ Ticarət və İnkişaf Agentliyi tırıfindın ayrılmış qranta nəticəsində ortaya atılan turizmin uzunmüddətli inkişafına aid xüsusi planın və qardaş ölkəTürkiyədən dəvət olunmuş təcrübəli mütəxəssislərin təklifləri ilə qurumun əməkdaşları tərəfindən kadr hazırlığının düzəldilməsi, yerləşmə yerlərinin sayının və keyfiyyətinin artırılması, turizmin növlərinin inkişafı, eyni zamanda sahənin inkişafına təkan verəcək « Turizmin İnkişafına aid 2008-2016-cı illər üçün Dövlət Proqramı tərtib edilmişdir. Eyni zamanda Prezidentin mövcud Fərmanına uyğun şəkildə Turizm zonalarının nümunəvi Əsasnaməsi» hazırlanmışdır. Əlavə olaraq qeyd etmək lazımdır ki, Turizm zonalarının müəyyən edilməsi üçün 2004-cü ildə Nazirliyin əməkdaşları regionlara ezam edilmiş və rayon nümayəndələri ilə birlikdə. Keçən müddətdə nümayiş obyekti şəklində istifadə olunması mümkün olan bəzi tarixi abidələr bərpa edilib istfadəyə verilmişdir.

Beynəlxalq şəkildə qeyd olunduğu kimi, demək olar ki, Azərbaycanda da hər il sentyabrın 27-si «Beynəlxalq Turizm Günü» şəklində qeyd olunmaqdadır. Bu zaman hazırlanılan tədbirlər daxilində həmçinin, müxtəlif mövzularda - mövcud problemlər və bu problemlərin həlli üsullarının müzakirə edilməsi, istirahət sahəsində xidmət səviyyəsinin qaldırılması, yeni infrastrukturların əsasını qoyulması və s. mövzularda «Daxili Turizm Konfransları» da həyata keçirilir. Həmçinin, bu müddətdə şirkətlər, xidmət obyektlərinin iştirakı daxilində Daxili Turizm Sərgisi olmuşdur.

Bundan başqa, ölkəmizin turizm potensialının dünyaya tanıdılması məqsədilə Avstriya ilə Almaniya şirkətləri və informasiya vasitələrinin nümayəndələr üçün nəzərdə tutulmuş informasiya turları təşkil edilmişdir. Bundan başqa, Respublikada fəaliyyət göstərməkdə olan turizm şirkətləri və informasiya vəsaitələrinin daxil olduğu nümayəndələrə görə Zaqatala, Lerik, və Quba rayonlarında baş tutan informasiya turları təşkil edilmişdir. Bu kimi turların nəticəsi olaraq, turist şirkətləri

və yerləşmə obyektləri arasında əməkdaşlığın təşkili və müqavilələrin bağlanması ortaya atılmışdır.

Turizm sektorunda çalışan nümayəndələrin yetişdirilməsi və onlara uyğun təlimin keçirilməsi üçün ardıcıl olaraq Türkiyə Turizm Nazirliyindən təcrübəli mütəxəssislər dəvət olunur və onlar mətbəx servisi, yerləşim idarəçiliyi və s. kimi mövzularda təlim və kurslar təşkil edirlər (7; 8).

Bundan əlavə turistlərə informasiyaların düzgün və daimi çatdırılması üçün mərkəzdə və bir sıra regionlarda «Turizm İnformasiya Mərkəzləri» yaradılmışdır. Yeni ümumdünya turizm marşrutlarının salınması çərçivəsində XIX əsrdə Tovuz, Şəmkir, Xanlar, rayonlarında yerləşmiş və ölkəmizin tarix və mədəniyyətində böyük iz qoymuş köçəri almanların yerləşdiyi bölgələrdə yeni turizm marşrutunun yaradılmış, bu yaşayış bölgələrinə aid olan abidələrin rekanstruksia olunması, turizm obyekti kimi sözügedən bölgədə mövcud tarixi abidələrin bərpası yeni bölgəyə uyğun infrastrukturunun salınması məqsədilə «Ölkəmizdə Alman yaşayış məskənləri» kimi bilinən layihə tədbirləri həyata keçirilmişdir. Həmin layihə daxilində GTZ ilə birlikdə Gəncəbasar ərazisinin inkişaf planının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulmuştur. Bu marşrutla yanaşı çərçivəsində «Gəmiqaya turizm marşrutu»nun, Kiyev təşəbbüsü daxilində həyata keçirilməsi düşünülən «Düma Qafqazda» və «Şərab Yolları» kimi marşrutlarında planı hazırlanmışdır **(23).**




### 3. 2. Turizmin inkişafına əngəl olan amillər

*1) Respublikamızda turizm sektorunun problemlərindən biri düzgün təbliğatın aparılmamasıdır.*

– Azərbaycan zəngin təbiəti istirahət turizmi üçün uyğun coğrafi şəraitinin layiqli şəkildə şəkildə aparılması bu sektorda yüksəlişi üçün tələb olunan əsas amillərdəndir. Düşünürəm ki, bu təbliğat üçün ən uyğun vasitələr xarici KİV-lərlə düzgün əməkdaşlıq və onlardan məqasədyönlü şəkildə istifadənin təmin olunması həmçinin beynəlxalq əhəmiyyətl tədbirlərin keçirilməsi ola bilər. Qeyd etmək yerində olar ki, 2012-ci ildə "Eurovision" musiqi tədbirinə ev sahibliyi edən Respublikamız öz turizm potensialını təqdim etmək üçün böyük imkan qazandı. Bununla yanaşı 2015-ci ildə Azərbaycanda keçirilən birinci Avropa Oyunları ilə Azərbaycan bird aha

dünyanın bütün diqqətini üzərinə çəkməyi bacardı. Lakin qeyd etmək labüddür ki, bu kimi tədbirlərin fəaliyyət müddəti qısa olur və bu müddət daxilində elə bir nümayiş olmalıdır ki, gələn turistlər növbəti səfər ölkəmizə sırf turizm xarakterli gəzintilər planlasın və ölkəmizin potensialını getdikləri yerlərdə ictimaiyyətə çatdırsınlar. Müvəqqəti gəlişi daimi xarakterə çevirmək üçün dünya ölkələrinin təcrübələrinə yönəlmiş tədbirlər həyata keçirilmməlidir. Nəzərə alsaq ki, turizm digər kommersiya fəaliyyəli sahələr kimi diqqəti çəkilən kütləni əlində saxlamaq üçün öz xidmətinin keyfiyyətini ən yüksək həddə çatdırmalıdır. Ölkəmizdə keçirilən nu kimi tədbirlərin davamlılığı olduğu müddətcə turist axınları davam edəcəkdir. Burada əsas məsələ isə gəlmiş kütləni başqa sahələrlə maraqlandırmaq və onlarda ölkəmiz üzrə maraq oyatmaqdır. Azərbaycan bu marağın oyadılması üçün yetərli turizm potensialına tarixi mədəniyyət abidələrinə təbi coğrafi şəraitə istirahət üçün uyğun iqlimə sahibdir.

*2) Kadr çatışmazlığı:*

-Bu problem təkcə turizmdə yox bir sıra başqa sahələrdə də mövcud olan ən böyek problemlərdən biridir. Bu sahədə də ixtisaslı kadrların təcrübəli mütəxəssislərin azlığı potensiallardan tam istifadə etməkdə çətinlik doğurur. Bu mövzuda yaranan problemin qaynağını xalqın tuizm sektoru ilə bağlı məlumatsızlığı və bununla bağl ortaya çıxan güvənsizliyi ilə əlaqələndirirəm. Bu problemin həlli üçün indiyə qədər atılmış ən böyük addım Azərbaycan Turizm və Menecment İnsitutunun yaradılması olmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin nəzdində yaradılmış insitut Nazirlər Kabinetinin 2006-cı ildə imzalanan qərarına söykənir. Həmin tarixli qərarla Cəfər Cəfərov İnsitutun rektoru təyin olunmuşdur. 22 Dekabr 2014 tarixli, Sərəncamla İnstitutunun bazasında bütün pillələrdə turizm sahəsində kadr hazırlığını reallaşdıran Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində Turizm və Menecment Universiteti yaradılmışdır. Qeyd etmək lazımdır ki, Universitetin potnsialı nə qədər böyük olsa da kadr çatışmazlığı probllеminin həlli üçün yetərli deyil. Bu problemin həlli üçün daha bir addım olaraq Türkiyədən davamlı olaraq mütəxəssislər gətirilir. Bu mütəxəssislər daha çox restoran və mehmanxanalarda xidmətin keyfiyyətinin

yüksəldilməsi ilə bağlı təlimlər keçirlər. Kadr probleminin həlli üçün zənnimcə ilk növbədə xalq bu sahə haqqında məlumatlandırılmalı və abituriyentlərə öz seçimlərini bu sahəyə yönəltməkləri üçün təbliğat aparılmalıdır (1).

*3) Əyani vəsaitlərin çatışmazlığı:*

İnsanlar üçün təhlükəsizlik ən vacib şərtdir. Mütəxəssislərin fikrincə insanların ən rahat olduqları yer haqqında yetərli məlumatları olduqları yerlrdir. Bütün turistlər istirahət üçün gedəcəkləri yerləri əvvəlcədən tanımaq istəyirlər. Əyani vəsaitlər bu zaman ağlımıza gələn ilk ünsürlərdir. Bu vəsaitlərin çoxaldılması və onların turistlərə düzgün şəkildə çatdırılması üçün xüsusi tədbirlər həyata keçirilməlidir. Broşüralar və kitabçalar kimi yanımızda daşıya bildiyimiz balaca vəsaitlər daha çox istifadə olunmaqdadır. Amma ölkə daxilində xəritədən istifadə nisbətən çətinlik yaratdığı üçün yol qıraqlarında və şəhərin mərkəzində məlumat lövhələrinin yaradılması və onlarda daha çox ümümişlək dillərin istifadəsi bu problmin həlli üçün uyğun addım olacaqdır.

*4) Qiymət problemi.*

Bu sektorun inkişafına əngəl olan başlıca problemlərdən biri məhz hazırkı bazar qiymətləridir. Nəzərə almalıyıq ki, dünya nüfuzun çox böyük bir hissəsini az və orta imkanlı şəxslər tuturlar. Bu faktoru nəzərə alaraq daha ucuz qiymətlərlə turizm bazarını ələ keçirmək mümkündür. Lakin təəssüf ki, statistic göstəricilərə görə ölkəmizdə nəqliyyat xərclərini də nəzərə aldıqda bir turistin dincəlməsi üçün ehtiyacı olan miqdar qonşu Türkiyədən 40% Gürcüstandan isə 60% yuxarıdır. Bu qiymətlər daxili turizmin inkişafında çox böyük çətinliklər törətməkdədir. Bu qiymət xərcləri nəin ki, xarici turistlərin ölkəyə gəlməsinə əngəl törədir hətta yerli turistlərin də ölkə xaricində istirahət etmələsinə sabəb olur. Belə yuxarı qiymətlərin ortaya çıxma səbəbini araşdırdıqda dövlət faktoru ilə də üzləşrik. İnkişaf etmiş ölkələrin turizm sektoruna baxdıqda turizmə olan dövlət ayğısını açıq şəkildə görə bilərik. Ölkəmizdə turizm xidməti həyata keçirməkdə olan şirkətlərdən on səkkiz faiz əlavədəyər vergisinin tutulması onların xərcini daha da artırır və nəticə olaraq bu artım özünü

xidmətlərin qiymətlərində göstərir. İkinci həll variant kimi isə turizmin bir tərəfli mövqeyindən iki tərəfli mövqeyinə keçməsini göstərmək olar. Belə ki, ölkəmizdə turist dedikdə daha çox yuxarı gəlirli insanların istirahət üçün xaricə getməsi başa düşülür. Lakin əslində aşağı və orta təbəqədən olan insanlarda turizm məqsədli səyahətlərə çıxmaqda maraqlıdırlar. Bunu nəzərə alaraq hər iki təbəəqəyə uyğun turizm paketləri hazırlanmalıdır. Paketlərə uyğun olaraq qiymətlər dəyişdikdə aşağı və orta təbəqədən olan insanlarıda turizm üçün həvələndirmək və nəticədə daha çoox turistlə daha çox qazanc əldə etmək mümkün olacaqdır. Dövlət turizmə dəstək olarkən ilk növbədə nəzərə almalıdır ki, hər bir turistin ölkəyə gətirdiyi və ya ölkə daxilində istifadə etdiyi vəsait dolayı yolla dövlət büdcəsinə təsir edir və ölkə iqtisadiyyatının yaxşılaşmasına kömək edir.

*5) Müasir standartlarla ayaqlaşa bilməmək:*

Turizm sahəsi elə bir sahədir ki, müştərilər xidməti yerindəcə yoxlamazdan əvvəl onunla bağlı qısa məlumat toplamaq istəyirlər. Belə ki, internet resurslarından electron məlumat portallarından axtarış etməklə ətraflı məlumat toplayır və bu məlumata uyğun olaraq özləri üçün ən uyğun istirahət zonasını seçirlər. Bu isə o deməkdir ki, bu tip electron xidmətlərin genişləndirilməsi vacib məsələlərdən biridir. Elektron qurğuların turizm sahəsində itifadəsi bununla da bitmir. Artıq ölkəmizdə də geniş olmasada istifadə olunan xüsusi qulaqcıqlı cihazlar mövcuddur ki, bununla turistlər olduqları bölgə haqqında istədikləri dildə məlumat yığa bilir və başqa bir kəsə ehtiyac duymadan gəzə bilirlər. Bu tip electron məlumat lövhələri ölkə daxilində cəmiyyətə açıq yerlərdə quraşdırılmalıdır (2).

*6) Tək istiqamətli turizm*

Ölkəmizdə alternativ turizm imkanları hər keçən gün biraz da artsa da təəssüfki bu artı yalnız bir isitqamətdə olur. Yuxarıda da qeyd etdiyim kimi turizm sözü hallandıqda yerli vətəndaşlarımız sadəcə xarici imkanlı şəxslərin ölkəmizə istirahət üçün gəlmələrini nəzərdə tuturlar. Lakin onlar bilməlidir ki, ən az xarici vətəndaşlar qəədər özlərinin də istirahət etmələri üçün ölkəmizdə yetərli şərait vardır. Yerli

turizm anlayışı demək olar ki, ölkəmizdə yox səviyyədədir. Bunun qarşısını almaq və daxili turizmi inkişaf etdirmək üçün ilk öncə xalq turizm mövzusunda daha da maarifləndirilməli və məlumatlandırılmalıdır. Əlavə olaraq Respublikamızda şəhər turizmi yetərincə inkişaf etsə də rayon və kənd turizmi inkişafdan kənarda qalmışdır. Bu problemin həlli üçün ilk növbədə regionlarda istirahət çün əlverişli yelər seçilməli və bu yrlərin təbliğatı aparılmalı həmçinin gediş gəliş problemləri aradan qalırılmalıdır (20). Daha sonra isə regionların inkişafı çərçivəsində turizm infrastrukturları istifadəyə verilməlidir. Bundan başqa regionlarda yaşayan əhaliyə gələn turistlərlə davranış qaydaları onların qarşılanması ilə bağlı məsələlər çatdırılmalıdır. Bu mövzuda da dünya tərübəsi öz sözünü deməkdədir. Fransada əhalinin 90,6 faizi isirahət zamanı öz ölkələrini seçir. Fransada turizm gəlirlərinin 65 faizi, Almaniyada isə 47 faizini İtaliyada 64 faizi daxili bazar hesabına formalaşmaqdadır (19).

2008-ci ildə Avstraliyada dünya böhranı əsas tutularaq turizm sektorunu inkişaf etdirmək üçün “Tətilsiz həyat yoxdur kampaniyası başladımışdır ki, bu kampaniya tezliklə digər Avropa ölkələrinin də marağına səbə olmuşdur.

Buna görə də, qeyd etiyimiz strateji planmalara söykənərək, turizm sektorunda qarşılaçdığımız tək yönlü problemlərin həlli üçün dünya təcrübəsini öyrənməli və ona uyğunlaşdırılmış tədbirlər yeritməliyik.

*7) Dövlət və özəl sektor arasındakı əlaqə*

Turizm sahəsinin inkişafı nə qədər özəl sektorun üzərinə daha çox düşsə də dövlətin dəstəyi olmadan mümkün deyil. Dövlət bu sahədə həm yeni infrastruktuların salınması regionların inkişafı ilə bağlı proqramların həyata keçirilməsi ilə bir başa rol oynasa da bir tərəfdən də kənardan nəzarət edici rol oynamalıdır. Uzunmüddətli bu sektorun inkişafını təmin etmək üçün özəl sektora bir başa dəstək olmalıdır. Turistlərin istirahət məqsədli ölkəmizi seçmələri üçün bir neçə səbə vardır.

- əlverişli təbii-coğrafi potensial;

- qədim və rəngarən tarix və zəngin mədəniyyət;

- siyasi sabitlik, tolerantlıq;

- qonaqpərvərlik, humanistilik.

8*) Təhsil sahəsinin təsiri*

Təəssüf ki, xalqımız xarici dil biliklərinə görə bir çox ölkədən geridə qalır. Hazırda bütün düyada aparıcı dil olan ingilis dili ölkəmizdə aşağı səviyyədə istifadə olunur. Təbiidir ki, insanlar getdikləri yerdə rahat ünsiyyət qurmaq istəyirlər. Bu səbəbdən daha çox istirahət üçün ingilis dilli ölkələr seçilir. Rus dili səviyyəsi xalqımız arasında nə qədər yüksək olsa da artıq mövcud vəziyyətdə ingilis dili daha üstün tutulmaqdadır. Bu səbəbdən təhsil sahəsində xarici dil bilikləri daha da artırlmalı və xalqımız öz qonağını özü qarşılaya biləcək şəkildə xarici dillərə yiyələnməlidir.

*9) Təcrübəsiz şirkətlər*

Son on illikdə ölkəmizdə turizm fəaliyyəti ilə məşğul olan kiçik şirkətlərin sayı durmadan artmaqdadır. Bu nə qədər müsbət göstərici olsa da bu şirkətlərin bir çoxunun təcrübəsizliyi və sırf maddi gözlənti xatirinə bu işlə məşğul olması çox böyük problemlərə gətirib çıxara bilitr. Belə ki, tək gözləntisi turistlərin maddi vəsaiti olan bu tip şirkətlər sadəcə olaraq öz ödənişləini alana qədər turistlərlə maraqlanır daha sonra isə kobud rəftara başlayırlar. Nəzərə alınmalıdır ki, bir səfər gələn turistin daimi ölkəmizə gəlməsi bir başa onları qarşılayan bu şirkətlərdən asılıdır. Turistlər ölkəyə ayaq basandan gedənə qədər bir başa bu şirkət işçiləri ilə əlaqədə olduqları üçün həmin şirkətlər bir başa ölkəmizin aynası rolunu oynayırlar. Bu kimi halların qarşısının alınması üçün aidiyyatı qurumlar tərəfindən bu tipli şirkətlər daim nəzarətdə saxlanmılmalıdır (4; 9; 14).

(21)

**1.6 Turizm agentlikləri və turoperatorların turizm sahəsi üzrə gəlir və xərcləri**

| | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Turizm sektorundan əldə edilən gəlir** | **4789.1** | **11646.2** | **12987.5** | **14013.3** | **14755.4** | **17804.4** | **21597.4** | **24823.4** | **26,034.0** | **35,079.4** | **34 834,4** |
| mülkiyyət növləri üzrə: | | | | | | | | | | | |
| dövlət | 157.4 | 191.4 | 429.7 | 28.3 | 1319.7 | 1513.3 | 1670.6 | 1813.6 | 1,748.2 | 1,764.2 | 1.802.4 |
| qeyri-dövlət | 4630.7 | 11454.7 | 12557.7 | 13985.7 | 13435.7 | 16291.7 | 19926.7 | 23017.0 | 24,282.7 | 33,315.7 | 33 061,7 |
| o cümlədən: | | | | | | | | | | | |
| xüsusi | 4453.7 | 10663.7 | 11939.7 | 13434.7 | 12863.7 | 15938.7 | 14597 | 17662.7 | 19,011.7 | 27,378.5 | 26 778,7 |
| xarici | 111.7 | 389.4 | 158.7 | 42.5 | 101.7 | 109.7 | 157.7 | 199.7 | 91.7 | 770.7 | 1 083,7 |
| birgə | 66.7 | 402.7 | 459.2 | 507.5 | 470.5 | 243.5 | 5175.5 | 5148.5 | 5,179.5 | 5,166.5 | 5 199,5 |
| **Turizm fəaliyyəti üzrə çəkilən xərclər** | **4094.5** | **9763.5** | **11909.4** | **13220.5** | **13805.5** | **16065.5** | **18903.5** | **21818.5** | **25,708.5** | **29,485.0** | **27 308,4** |
| o cümlədən mülkiyyət növləri üzrə: | | | | | | | | | | | |
| dövlət | 140.4 | 173.4 | 413.4 | 52.4 | 922.4 | 1048.4 | 1171.4 | 1207.4 | 1,203.4 | 1,202.4 | 1 205,4 |
| qeyri-dövlət | 3953.4 | 9594 | 11496.4 | 13168.4 | 12883.4 | 15016.4 | 17731.4 | 20610.4 | 24,505.4 | 28,277.4 | 26 102,4 |
| o cümlədən: | | | | | | | | | | | |
| xüsusi | 3795.4 | 8844.4 | 10877.4 | 12638.4 | 12328.4 | 14667.4 | 14247.4 | 17191.4 | 20,477.4 | 24,272.4 | 21 769,4 |
| xarici | 103.4 | 365.4 | 160.4 | 52.4 | 84.4 | 106.4 | 249.4 | 194.0 | 792.4 | 797.4 | 1 082,4 |
| birgə | 54.4 | 380.4 | 457.4 | 477.4 | 470.4 | 242.4 | 3234.4 | 3221.4 | 3,234.0 | 3,204.1 | 3 240,9 |

**1.23 2016-cı ildə qəbul edilmiş və göndərilmiş turistlərin ölkələr üzrə sayı**

| | Cəmi | | o cümlədən: | | | |
|---|---|---|---|---|---|---|
| | | | qəbul edilmiş | | göndərilmiş | |
| | turistlərin sayı, nəfər | tur-günlərin sayı, adam-gün | turistlərin sayı, nəfər | tur-günlərin sayı,adam-gün | turistlərin sayı, nəfər | tur-günlərin sayı, adam-gün |
| **Cəmi** | **53,999** | **349,496** | **8,949** | **33,054** | **45,050** | **316,442** |
| o cümlədən: | | | | | | |
| Azərbaycan Respublikası | 9,546 | 55,305 | - | - | 9,546 | 55,305 |
| Rusiya Federasiyası | 8,719 | 50,255 | 4,321 | 13,243 | 4,398 | 37,012 |
| Gürcüstan | 694 | 4,684 | 10 | 58 | 684 | 4,626 |
| Qazaxıstan | 41 | 195 | 9 | 54 | 32 | 141 |
| Ukrayna | 553 | 5,394 | 35 | 167 | 518 | 5,227 |
| Türkiyə | 14,921 | 104,159 | 50 | 266 | 14,871 | 103,893 |
| Birləşmiş Krallıq | 707 | 3,277 | 61 | 221 | 646 | 3,056 |
| Almaniya | 1498 | 6973 | 83 | 217 | 1415 | 6756 |
| İspaniya | 415 | 1965 | 86 | 429 | 329 | 1536 |
| İtaliya | 621 | 2982 | 144 | 603 | 477 | 2379 |
| Fransa | 431 | 1871 | 133 | 494 | 298 | 1377 |
| Finlandiya | 222 | 657 | 16 | 48 | 206 | 609 |
| BƏƏ | 5569 | 28836 | 1262 | 6510 | 4307 | 22326 |
| Misir | 389 | 1758 | 5 | 15 | 384 | 1743 |

Azərbaycan Respublikasının ÜDM-yə daxil olan gəlirlərinin hər il ortalama hesabla 100 mln dollar kimi bir hissəsi turizm yolu ilə gəlməkdədir. Bu rəqəm nə qədər ürəkaçıcı görünsə də nəzərə alsaq ki, ölkəmizdən dəfələrlə kiçik əraziyə sahib olan Kiprdə bu rəqəm 2 mlrd dollardır. Bu səbəbdən mövcud potensialı imkana çevirmək üçün müvafiq infrastuktur layihələri hazırlanmalı və turizm sektoru rəqabətli biznes sahəsinə çevrilməlidir. Dövlət tərəfindən bu sahə ilə maraqlanan yerli biznesmenlərə gööstərilən dəstək xarici investorlarında diqqətini çəkəcəkdir. Turizm sahəsinə yönələcək xarici investisiya ölkə daxilinə xaricdən vəsait axını ilə nəticələnəcək bu da öz növbəsində iqtisadiyyatın dirçəlməsinə təkan verəcəkdir. Turizm sahəsinə yönələn investisiya miqdarında artış ilk olaraq 2000-ci ildən başlamışdır ki, bu dövr ölkə iqtisadyyatının stabil iqtisadi inkişafa başladığı dövr kimi bilinir. 2006-2010-cu illərdə yatırılan investisiyalada azalma müşahidə olunmuşdur. Bu azalmanın səbəbi kimi həmin dövrdə ölkə büdcəsində transferlərin əsas hissəsini Neft Fonduna yönəlmiş transferlər tutur. Turizm isə təbii olaraq digər qeyri-neft xarakterli sahələr kimi mənfi təsir yaşamışdır. Bununla da ölkə daxilində turizm sektorunun iqtisadi payını azaltmışdır. Həyata keçirilməkdə olan dövlət proqramları 2022-ci ildə bu payı artırmağa yönəldilmişdir. İqtisadiyyatın hərhansı sahəsinə yönəldilmiş investisiya geniş pul ehtiyatlarının dövriyyəsi ilə nəticələnir ki, bununlada ölkə iqtisadiyyatına bir başa təsir etmiş olur. İnvestisiya qoyuluşuna ən çox təsir edən amil qoyulan investisiyanın effektlilik və risk dərəcəsidir. Bu effektlilik isə turist sayı ilə ölçülür və nəticədə ortada bir iqtisadi çevrə yaranır. Belə ki, ölkəyə nə qədər çox turist gəlsə investorların bu sahəyə marağı o qədər artacaqdır. İnvestorarın marağının artması bu sahəyə əlavə investisiyaların cəlb olunması ilə nəticələnəcək və xidmətdə artan keyfiyyət daha çox turist cəlb edəcəkdir. Bu məsələnin daha da aydınlaşması üçün biz turist başına çəkilən xərcin miqdarına baxa bilərik. Bir turist üçün -q miqdarda xərc çəkilirsə tələb aşağı düşdükdə çəkilən xərc iki turist üçün-q olacaq. Bu isə xidmətin keyfiyyətinə təsir edəcək. Ölkəmizdə 2007-ci ilə dək turist başına çəkilən xərc çox olsa da artıq 2008-ci ildən aşağı düşmüşdür. 2011-ci ilə dək enməkdə davam

etmişdir. Xərclərin ən yuxarı səviyyəsi 2009-cu ildə olmuşdur (turist başına-1240 AZN).

Bəs turizmə olan tələbat nə ilə əlaqəlidir?

1-Iqtisadi amillər. Ölkənin iqtisadi durumu. Əhalinin alıcılıq qabiliyyəti. İnflyasiya dərəcəsi. Bazar qiymətlərinin dərəcəsi.

2-Sosial amillər. Dövlətin turizmlə bağlı sosial siyasəti. Sosial təqaüd və güzəştlər.

3-Demoqrafik amillər-Ölkənin yaş üstəliyi. Əhalinin tərkibi.

4-Təbii amillər-Ölkənin coğrafi şəraiti. Günəşli günlərin sayı və. s.

5-Xüsusi amillər. Biznes məqsədli. Sağlamlıq məqsədli və. s. (16; 15; 18).

## *Nəticə və təkliflər*

Bu gün Azərbaycan Respublikasında turizm iqtisadi fəaliyyətin əsas dairəsi kimi xüsusi əhəmiyyət daşımaqdadır Turizm bütövlükdə cəmiyyətin social-iqtisadi maraqlarının ifadəçisi, kiçik və böyük formada gəlirlərin mənbəyi olaraq iştirak edir. İlkin primitiv yanaşma ilə baxdıqda turizm sahəsi yüksək əməktutumlu sahə olduğu üçün cəmiyyətə çox sayda iş imkanları təqdim etməkdədir. Ölkə iqtisadiyyatının böyük problem olan işsizlik turizmin inkişafı ilə aradan qaldırıla bilər. ÜTT (Ümumdünya Turizm Təşkilatı)-nın proqnozlarına əsasən demək olar ki, 2020-ci ildə turizm sahəsindən əldə turizm olunacaq 2 trilyon dollar orta hesabla hərərkətedəcək 1. 6 milyard turistin üzərinə düşəcək. Xarici ticarət balansının aktivləşməsində eləcə də Ümumi Daxili Məhsulun formalaşmasında turizm sahəsinin rolu sözsüz böyükdür. Turizm sahəsi eyni zamanda iqtisadi  katalizator rolunu da üstlənməkdədir. Belə ki, bu sahənin inkişafı digər bir çox sahəyə bir başa təkan verməkdədir turizm Son illərdə dünya iqtisadi zəminində baş verən gözlənilməz makro dəyişikliklər tək yönlü iqtisadiyyata sahib olan ölkəmizdə də ciddi nəticələrlə özünü göstərdi. Biz bir daha əmin olduq ki, ölkə iqtisadiyyatını bir sahəyə söykəmək çox böyük riskdir və qarşısı alınmalıdır. Neftin qiymətində baş verən ağlasığmaz dəyişikliklər və bu dəyişikliklərin milli valyutamız üzərindəki təsiri qeyri-neft sektorunun tezliklər dirçəldilməli olduğunu göstərdi. Bu iqtisadi böhranın ardınca ölkəmizdə xüsusilə iki sahənin -kənd təsərrüfatı və turizm inkişafına maraq artırıldı. Bu da təsadüfi deyidi ki, ölkəmiz istər kənd təsərrüfatı istərsə də turizm sənayesinin inkişafı üçün münbit şərait və ehtiyatlara sahibdir. Gerid qalan məsələ isə bu ehtiyyatların səmərəli şəkildə işıq üzünə çıxarılması və bütün dünyanın marağını ölkəmizə çevirəcək şəkildə təqdim olunması idi.

Son illər də beynəlxalq çərçivədə işgüzar səfərlərin və yaşlı nəslin rolu tuizm sahəsində artmışdır. Bu artım daha çox əhalinin yaşayış şəraiti və iqtisadi-siyasi sabitliyin artmasından asılıdır. . Xarici turizmlə yanaşı daxili turizmində artması bütün ölkələr üçün iqtisadiyyatın formalaşmasında gücclü təsirə malikdir. Turizmin inkişafı özü özlüyündə bəzi səbələrdən asılıdır.

1. İqtisad və sosial inkişafın nəticəsi kimi işgüzar sahənin və maraq dairələrinin artması ilə əlaqədar olaraq səfərlərin sayında baş verən artım;

2. Əhalinin bütün təbəqələrinin istifadəsinə uyğun formada nəqliyyat növlərinin təkmilləşdirilməsi və gediş-gəlişin qiymətlərinin ucuzlaşdırlılması.

3. İnkişaf etmiş ölkələrdə məvaciblərin artırıkması və məəzuniyyət müddətlərinin istirahətə uyğun şəkildə artırılması.

4. Gömrük rəsmiyyətinin və viza şərtlərinin sadələşdirilməsi ölkədən valyuta çıxarılmasının rahatlaşdırılması.

Turizm bütün ölkələr üçün mühüm valyuta daxilolması mənbəyi və ÜDM-nin artmasında stimullaşdırıcı amil eləcə də bir çox digər sahənin inkişafında təkanverici qüvvə kimi qəbul olunur.

Ölkəmizdə turizmin inkişaf problemləri haqqında apardığım araşdırmalara əsasən qeyd etmək istəyərdim ki, təəssüf ki, ölkəmiz bir çox xarici mənbə də turizm üçün çətin ölkələr siyahısındadır. Bunun səbəbi kimi sözügedən mənbələrdə viza rejiminin sərtliyi göstərilir. Aidiyyatı qurumların son müddətdə apardığı ciddi islahatlarla bu problemin həllində ciddi işlər görülmüşdür. Lakin bu hələ də yetərli deyil. Viza rejiminin əhəmiyyətini göstərmək üçün təkcə son iki ildə ölkəyə daxil olan ərəb turistlərin sayını göstərmək kifayətdir. Nazirlər Kabinetinin 2015-ci ildı iqtisadi inkişafın yekunlarına həsr olunan iclasında verilən göstərişlərin həyata keçirilməsi ilə bağlı 2016-cı ilin fevralın 1-dən Küveyt, Oman, Səudiyyə Ərəbistanı, Qətər, və başqa ölkələrin vətəndaşlarına beynəlxalq statuslu aeroportlarda sadələşdirilmiş viza rəsmiləşdirilməsinin aparılması bu məsələnin əsas səbəbidir.

Viza sadələşdirilməsi ölkəyə nə qədər çox turist cəlb etsə də əsas olan gələn turistləri məmnun şəkildə qarşılayıb yola salmaqdır ki, bu axın daimi xaraktr daşıya bilsin. Bunun üçün ilk növbədə xalqımız bu sahədə maariflənməlidir. Belə ki, yerli əhalinin turistlərə olan yanaşmasından yola çıxıb söyləyə bilərəm ki, vətəndaşlarımız turist axının bizə olan müsbət çərçivədə rolundan xəbərsizdirlər. Onlar onsuz mənə bir faydası yoxdur prinsipi ilə hərəkət edərək turizmin inkişafında rol oynamaqdan çəkinirlər. Bunun həlli üçün düşünürəm ki, sosial çərçivədə turizmin ölkəmizə olan xeyrini vətəndaşlara çatdırmaq üçün ictimaiyyətə açıq yerlərdə televizyada və. s tez-tez bu məsələ qabardılmalıdır. Son on illikdə bir neçə beynəlxalq əhəmiyyətli tədbirin ölkəmizdə keçirilməsi turistlərin marağını ölkəmizə çəkmiş olsa da xalq arasında aparılan sorğu onların bu tədbirlərə israfçılıq kimi yanaşdıqlarını göstərir.

Nəticə etibarı ilə ölkəmiz turizmlə bağlı tədbirləri gücləndirməli, viza rejimini sadələşdirməli, vətəndaşları turizm sahəsində maarifləndirməli, regionların inkişafı proqramları çərçivəsində turizm infrastrukturlaının tikintisinə, yolların salınmasına üstünlük verməli, özəl sektora daha çox imkanlar verməli, kadr islahatları çərçivəsində turizm sektoru ilə işləyə biləcək ixtisaslı kadrların hazırlanmasına diqqət ayırmalı, artıq işləməkdə olan kadrları təlimlərlə ixtisaslaşdırmalı, dünya ölkələrinin təcrübəsindən yola çıxaraq onların tərtib etdiyi turizm üçün yol xəritələrini ölkəmizə uyğunlaşdırmalıdır.

***Ədəbiyyat siyahısı***:


1. Azərbaycan Respublikasının Konsitutiyası. Bakı-1997
2. Turizmdə nəqliyyat xidmətlərinin təşkili-H. Ə. Şahsuvar. Bakı-2011
3. Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri- Elşən Qardaşxan oğlu Məmmədov. Bakı-2013
4. Turizmin inkişafının sosial-iqtisadi problemləri- Əlirzayev Əli Qəmbərli oğlu, Aslanova Saidə İsmət qızı, Bakı-2006
5. Azərbaycan Respublikasında Turizm və onun inkişafı- Soltanova Həbibə Bayraməli qızı ,Bakı-2016
6. Ekoloji Turizm- Əsgərov Ələmdar Tağı oglu, Bilalov Bahadur Ənvər oğlu, Gülalıyev Çingiz Gülalı oğlu
7. Turizm fəaliyyətinin tənzimlənməsi-Bilalov Bahadur Ənvər oğlu, Bakı-2006
8. Turizm-Yeganlı Siyavuş Teymur oğlu, Bakı-2006
9. Azərbaycanda turizmin inkişaff problemləri-F. İ. Qurbanov. Bakı 2007
10. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili-i. Hüseynov. Bakı-2008
11. Qonaq evlərinin sahiblərinə praktiki tövsiyyələr-F. Nadirov. Bakı-2008
12. Turizmin iqtisadiyyatı və idarə edilməsi-Əlirzayev Əli Qəmbər oğlu. Bakı-2011
13. Azərbaycan ekoloji turizm potensialı-Məmmədov Qərib Şamil oğlu. Bakı-2012
14. Azərbaycan turizmi və onun inkişaf problemləri-Abadov Məsim Kazım oğlu-Bakı-2014

15. Beynəlxalq turizm hüququ-Əliyev Əmir İbrahim oğlu, Aslanov Elnur Zakir oğlu. Bakı-2011

16. Azərbaycan turizmi bu günü və sabahı-4-cü Respublika elmi-praktiki konfransı materialı. Bakı-2013.

*Xarici mənbələr:*

17. Otel işletmeciliği ve yönetimi-Zeki Akıncı, 2016

18. Turizm işletmelerinde İnsan Kaynakları yönetimi ve Uygulamaları-Nilüfer Şahin Perçin, 2016

19. Turizm pazarlaması-Sabiha Kılıç. Semra Demir. 2015

İnternet resursları:

20. http://azerbaijan. az/_Sosiety/_Tourism/tourism_01_a. html

21. https://www. stat. gov. az/

22. https://azertag. az

23. http://www. preslib. az/en/

24. http://library. unec. edu. az